## Suriyadakı durum müzakirə olunub

Türkiyə, Rusiya, İran və Suriya müdafiə nazirləri Moskvada görüşüb



**Moskvada Türkiyə, Rusiya, İran və Suriya müdafiə nazirləri arasında dördtərəfli görüş keçirilib.**

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirlər Türkiyə-Suriya münasibətlərinin normallaşmasını müzakirə ediblər. Tərəflər həmçinin Suriyada terrorla mübarizə barədə danışıblar. İclasda suriyalı köçkünlərin torpaqlarına qayıtması istiqamətində atıla biləcək addımlara dair fikir mübadiləsi aparılıb.

## AZAL Avropaya birbaşa uçuşların sayını artıracaq



**"Azərbaycan Hava Yolları" QSC (AZAL) Avropanın şəhərlərinə birbaşa uçuşların sayını artırmağı planlaşdırır.**

Bunu AZAL-ın I vitse-prezidenti Samir Rzayev bildirib.

O, aviaşirkətin həyata keçirəcəyi birbaşa uçuşlarda rahatlığın və yüksək səviyyəli xidmətin təmin olunacağına əminliyini ifadə edib.

*Xatırladaq ki, mayın 2-dən AZAL Bakıdan Avstriyanın paytaxtı Vyanaya birbaşa uçuşlara başlayacaq. Aviareyslər hər həftənin çərşənbə axşamı və cümə günləri yerinə yetiriləcək.*


❐ № 70 (5831) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 26 aprel 2023-cü il (çərşənbə)


# Tarixi zəfər



Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəmiz quruldu

(səh.3)



## Qarabağda sülhməramlıların komandanı dəyişdirildi

Rusiyanın məqsədi üzərindəki basqını və narazılığı mümkün qədər azaltmaqdır

**Rusiya hakimiyyəti Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının komandanı Andrey Volkovu geri çağırmaq qərarına gəlib. Məlumata görə, onu general-polkovnik Aleksandr Lentsov əvəz edib.**

Qeyd olunub ki, Rusiya sülhməramlılarının yeni komandanı general-polkovnikdir və müdafiə naziri Sergey Şoyqunun ən etibarlı adamlarından biridir. Qeyd edək ki, Azərbaycan tərəfi haqlı olaraq Qarabağdakı rus sülhməramlılarından narazılığını ifadə edir, əsaslı iradlarını bildirir.

(səh.5)

## "Qoy mandatını, çıx get"

Spikerin müavini Vahid Əhmədova çağırış edib



**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib və deputatların cari məsələlərlə bağlı çıxışları dinlənilib.**

Parlament üzvlərinin çıxışları deputat Vahid Əhmədovun ötən həftə bloger Mehman Hüseynova verdiyi qalmaqallı müsahibəyə həsr olunub. Deputatlar Vahid Əhmədovun səsləndirdiyi fikirlərə sərt formada etirazlarını bildiriblər. Parlamentarilərin fikrincə, V.Əhmədovun açıqlamaları Milli Məclisin işgüzar nüfuzuna xələl gətirir, aparılan siyasətə ziddiyyət təşkil edir.

(səh.2)

# Sofiyada anlaşma

Azərbaycan dünyada etibarlı tərəfdaşa çevrilir




### Azərbaycan Avropada milli qaz tədarükü coğrafiyasının genişlənməsini mümkün etdi

**"Anlaşma Memorandumunun imzalanması enerji təhlükəsizliyi baxımından olduqca vacib və vaxtında atılmış addımdır".**

Bunu Sofiyada Bolqarıstan, Ruminiya, Macarıstan və Azərbaycan arasında Anlaşma Memorandumunun imzalanması mərasimində Prezident İlham Əliyev deyib. Dövlət başçısı qeyd edib ki, bu təşəbbüs enerji resurslarının daha da şaxələndirilməsi və enerji təhlükəsizliyi baxımından çox vacib addımdır və olduqca vaxtında atılmış addımdır:

"Bu layihə Azərbaycanın Avropada milli qaz tədarükü coğrafiyasının genişlənməsini mümkün etdi və bu layihə eyni zamanda artıq Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə yardım edir".

(səh.2)

## Azərbaycanda da 4 günlük iş həftəsi təcrübədən keçirilə bilər

Lakin ölkə iqtisadiyyatı buna tam hazır olmalıdır



**Qazaxıstan iyulun 1-dən ölkədə dördgünlük iş həftəsi tətbiq etməyə hazırlaşır.**

Respublikanın Əmək Məcəlləsinə müvafiq dəyişikliklər edilib, ölkə Prezidenti Kasım-Jomart Tokayev bu dəyişiklikləri bəyənib.

"Şərq" xəbər verir ki, Qazaxıstan Respublikası əmək qanunvericiliyinə edilən yeniliklərin məqsədi ölkə sakinlərinin istirahət etmələri üçün onlara daha çox vaxt verməkdir. Əmək Məcəlləsində beşgünlük və altıgünlük iş həftələri də nəzərdə tutulub. Qeyd edilir ki, iş həftəsinin müddəti tərəflər arasında razılaşmaya əsasən müəyyən olunur.

(səh.4)



## İrana casusluq edən daha 3 nəfər saxlanıldı

**Ölkəmizdə İranın casus şəbəkəsinə qarşı keçirilən əməliyyatlar nəticəsində daha üç nəfər şübhəli şəxs qismində saxlanılıb.**

Bununla bağlı "Güney Azərbaycan" Teleqram kanalı məlumat yayıb.

Məlumatda keçirilən əməliyyat nəticəsində Sabirabad sakini Müşfiq Cəfərov, Sumqayıt sakini Elçin Zeynalov və Bakı sakini Cavid Allahverdiyevin saxlanıldığı bildirilib.

## Şahbaza Balaxanıda zibillikdə iş təklif olunub



**Bir müddət əvvəl işsizlikdən gileylənən keçmiş girov Şahbaz Quliyevdən yeni xəbər var.**

"Şərq"ə işsizliyi ilə bağlı danışan Ş.Quliyev ona Balaxanı zibilliyində iş təklif olunduğunu iddia edib:

"İş yoxdur. Balaxanıda zibil yeri deyiblər, görək. Deyiblər, sənə orada iş yeri tapacağıq. Maşın zibili boşaldanda kömək edəcəksən. Başqa da nə deyim?".

**Samirə**

## 4 nəfər ölüb

18 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 18 yeni yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb.**




Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında 4 nəfər ölüb.

Azərbaycanda indiyədək ümumilikdə 831 128 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 820 689 nəfər müalicə olunaraq sağalıb, 10 230 nəfər vəfat edib, aktiv xəstə sayı 209 nəfərdir.

Ölkədə son sutka ərzində 913, hazırkı dövrədək isə 7 584 235 test aparılıb.

*Son sutkada koronavirus (COVID-19) əleyhinə 259 vaksin vurulub. Vurulan vaksinlərin ümumi sayı 13 959 427 nəfər təşkil edir.*



## "Dəfələrlə ölüm riski ilə üz-üzə qalmışıq"

Fazil Mustafa: "Belə atəşin altından sadəcə yaralanaraq çıxmaq inanılmaz bir haldır"

(səh.4)



## "Girov" filmi məhv edilməli, arxivdən də silinməlidir"

Seyran Səxavət: "And olsun Allaha ki, bu, xalqa, dövlətə xəyanətdir!"

(səh.5)

# Sofiyada anlaşma

## Azərbaycan dünyada etibarlı tərəfdaşa çevrilir




**"Anlaşma Memorandumunun imzalanması enerji təhlükəsizliyi baxımından olduqca vacib və vaxtında atılmış addımdır". Bunu Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan və Azərbaycan arasında Anlaşma Memorandumunun imzalanması mərasimində Prezident İlham Əliyev deyib. Dövlət başçısı qeyd edib ki, bu təşəbbüs enerji resurslarının daha da şaxələndirilməsi və enerji təhlükəsizliyi baxımından çox vacib addımdır və olduqca vaxtında atılmış addımdır:**

"Bu layihə Azərbaycanın Avropada milli qaz tədarükü coğrafiyasının genişlənməsini mümkün etdi və bu layihə eyni zamanda artıq Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə yardım edir".




Azərbaycan Avropada milli qaz tədarükü coğrafiyasının genişlənməsini mümkün etdi

**"İlin sonunadək Macarıstan və Slovakiya da Azərbaycandan qaz idxal edən ölkələrin sırasına qoşula bilər"**

Prezident İlham Əliyev bəyan edib ki, ilin sonunadək Macarıstan və Slovakiya da Azərbaycandan qaz idxal edən ölkələrin sırasına qoşula bilər: "Azərbaycan qaz tədarük etdiyi ölkələrin sayını 6 ölkədən ən azı 10 ölkəyə çatdıracaq". Dövlət başçısının sözlərinə görə, Azərbaycan Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan və İtaliyaya, bu ildən başlayaraq isə Rumıniyaya təbii qaz ixrac edir, ilin sonunadək isə Macarıstan və Slovakiya da Azərbaycandan qaz idxal edən ölkələrin sırasına qoşula bilər: "Bütün zəruri interkonnektorlar yerində olarsa, biz ilin sonunadək Macarıstan və Slovakiyaya qaz tədarükünə başlamağı planlaşdırırıq. Biz Albaniya ilə yerli qaz paylayıcı sisteminin tikintisi ilə bağlı danışıqlar prosesindəyik. Çünki Cənub Qaz Dəhlizi Albaniya ərazisindən keçir. Həmçinin "Həmrəylik Halqası" üzvü olaraq Slovakiya da əminəm ki, tezliklə bizim enerji sahəsində tərəfdaşımız olacaq. Biz qaz tədarükümüzün coğrafiyasını genişləndirərək 6 ölkədən ən azı 10 ölkəyə çatdıracağıq. Mən "ən azı" dedim, çünki düşünürəm ki, bu, hekayənin sonu deyil, biz Avropa qaz bazarındakı mövcudluğumuzu daha da genişləndirməyi planlaşdırırıq".

Ölkə başçısı bəyan edib ki, Avropa İttifaqı ölkələrinin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır: "Sofiyada imzalanan Anlaşma Memorandumu ilə Azərbaycan Avropa ölkələrinə daha çox qaz ixrac edəcək ki, bu da ittifaqın enerji təhlükəsizliyinin güclədirilməsinə töhfə verəcək. Bu gün imzalanan Anlaşma Memorandumu Avropanın enerji təhlükəsizliyini gücləndirəcək və Azərbaycanın bir çox Avropa ölkəsinə daha çox qaz ixrac etməsinə imkan verəcək.

Bu gün artıq burada Avropa Komissiyasının enerji komissarı xanım Kadri Simson, eləcə də Avropa Komissiyasının digər rəsmiləri və digər dostlar tərəfindən də qeyd edildiyi kimi, Azərbaycan Avropanın etibarlı tərəfdaşıdır və bu, sadəcə enerji sahəsində deyil, bir çox digər sahələrdə də belədir. Həmçinin sizə bildirmək istərdim ki, Azərbaycan Avropa İttifaqı üzvü olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında razılaşma və bəyannamələr imzalayıb və qəbul edib. Beləliklə, bu o deməkdir ki, Aİ ölkələrinin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox vacib gələcəyi var".

**"Azərbaycan tərəfdaş ölkələrlə əməkdaşlığı davam etdirməyə və birlikdə bütün hədəflərə nail olmağa hazırdır"**

Prezident bildirib ki, Azərbaycan tərəfdaş ölkələrlə əməkdaşlığı davam etdirməyə və birlikdə bütün hədəflərə nail olmağa hazırdır: "Azərbaycan müstəqilliyinin bərpasından 3 ildən az bir müddət içində sonralar "Əsrin müqaviləsi" adlandırılacaq müqaviləni imzaladı və ilk dəfə xarici neft şirkətlərini Xəzər dənizində işləməyə, neft istehsal etməyə və kəşflərə dəvət etdi. Beləliklə, biz bu gün 21-ci əsrin layihəsini həyata keçiririk və bu layihə böyüyür. Ona görə də enerji sahəsində etibarlı tərəfdaş olan Azərbaycan əminliklə bizim bu yolumuzu davam etdirməyə və bütün hədəflərə nail olmağa hazırdır".

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan 27 ildən çoxdur ki, Avropanın etibarlı xam neft tədarükçüsüdür: "Mən Bolqarıstan Prezidenti cənab Radevin bu möhkəm tərəfdaşlar komandasının yaradılması təşəbbüsündəki xüsusi rolunu vurğulamaq istərdim. Əminəm ki, "Həmrəylik Halqası" bizim birgə planlarımızın həyata keçirilməsində vacib rol oynayacaq. Mən həmçinin sizə bildirmək istərdim ki, təbii qaz Azərbaycanın Avropaya ixrac etdiyi yeganə enerji məhsulu deyil. Biz 27 ildən çoxdur ki, etibarlı xam neft tədarükçüsüyük, elektrik enerjisi də bizim ixracımızın bir hissəsidir".

**"Bizim "yaşıl enerji" ixracımızın əsas istiqaməti əlbəttə ki, Avropadır"**

Dövlət başçısı qeyd edib ki, Azərbaycanın "yaşıl enerji" ixracının əsas istiqaməti Avropadır: "Bildirmək istərdim ki, üç önəmli enerji infrastrukturu layihəsinin - biri Xəzər dənizindən Aralıq dənizinə, digəri isə Xəzər dənizindən Qara dənizə olmaqla iki neft kəmərinin və 3 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizi layihəsinin uğurla tamamlanmasından sonra biz Azərbaycanın alternativ enerji istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində işləyirik. Alternativ enerji sahəsində aparıcı beynəlxalq şirkətlər 25 geqavatdan çox alternativ enerji istehsalı üçün Azərbaycanla müqavilələr və anlaşma memorandumları imzalayıblar. İlk külək və günəş enerjisi stansiyalarının tikintisi başlayıb. Azərbaycanda alternativ enerjisinin proqnozlaşdırılan potensialı Xəzərin Azərbaycan sektorunda 157 geqavat olmaqla ümumilikdə təxminən 200 geqavatdır. Bizim "yaşıl enerji" ixracımızın əsas istiqaməti əlbəttə ki, Avropadır". Prezident İlham Əliyev Azərbaycanın aktiv enerji diplomatiyasını və meqalayihələr həyata keçirilməsini davam etdirdiyini vurğulayıb.

Dövlət başçısı deyib ki, Azərbaycan və Bolqarıstan arasında uzunmüddətli və strateji əməkdaşlıq var və son bir ildə daha da inkişaf edib: "Azərbaycan etibarlı ticarət partnyorudur. Azərbaycanla Bolqarıstan arasında mövcud olan sənədə əsasən, Azərbaycan beynəlxalq böhranlara baxmayaraq, bütün öhdəliklərini yerinə yetirib. Azərbaycan həmçinin Aİ ilə strateji əməkdaşlıq edir. Bunun təsdiqi ötən ilin iyul ayında, Azərbaycan ilə Aİ arasında imzalanan anlaşma memorandumudur.

Lakin hələ də bir sual qalır ki, Azərbaycanda əlavə təbii qaz hansı şəkildə Avropaya çatacaq. Biz illər sonranı da düşünürük. Bu, sadəcə bizim üçün yox, həm də Mərkəzi və Cənub-Şərqi Avropa üçün diversifikasiya baxımından xeyirlidir".

**İsmayıl**

# Bayden gələn il yenidən namizəd olacaq



**ABŞ Prezidenti Co Bayden gələn il seçkilərdə iştirak edəcəyini rəsmən bəyan edib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, 80 yaşında olan Bayden hələ də ABŞ-nin ən yaşlı prezidenti statusunu daşıyır.

Həmçinin əgər Bayden yenidən ABŞ prezidenti seçilərsə, vəzifəsini sonlandıranadək onun 86 yaşı tamam olacaq.

Xatırladaq ki, birinci xanım Jill Bayden fevral ayında ərinin namizədliyi ilə bağlı qərarın böyük ölçüdə verildiyini və "rəsmi elanın tarixinin hələ müəyyən edilmədiyini" söyləyib.

*Qeyd edək ki, Bayden 2024-cü il prezident seçkilərində iştirak etməsi üçün ilk növbədə Demokrat Partiyasının rəhbəri seçilməlidir.*

**Nihat Müzəffər**

# Səfirin açıqlamasına sərt reaksiya veriblər

## Çinli diplomat Krımı "tarixi rus ərazisi" adlandırıb



**Çinin Fransadakı səfiri Lou Şayenin televiziya kanallarından birinə verdiyi müsahibə geniş əkssəda doğurub. Aparıcı səfirə "Krım kimindir" sualı ilə müraciət edib.**

Çinli diplomat Krımı "tarixi rus ərazisi" adlandırıb. Çin səfiri müsahibəsində daha irəli gedərək ümumiyyətlə müstəqilliyini qazanan keçmiş sovet ölkələrinin "beynəlxalq hüquqda effektiv statusunun olmadıqlarını" bildirib. Çinli diplomatın sözlərinə görə, müstəqilliyini qazanan dövlətlərin "suveren ölkə statusunu reallaşdıracaq heç bir beynəlxalq müqavilə yoxdur".

**"Atlas"Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, çinli səfirin "məntiqinə" görə, Ukrayna, Gürcüstan, Azərbaycan və SSRİ-nin tərkibindəki keçmiş respublikaların müstəqillikləri nominal xarakter daşıyır:** "Ukraynanın Fransadakı səfiri Vadim Omelçenko çinli diplomatın açıqlamalarına sərt reaksiya verib. Ukraynalı diplomat deyib ki, çinli həmkarının coğrafiya ilə bağlı problemləri var. Ukrayna səfiri çinli diplomatın Pekinin Ukraynanın ərazi bütövlüyünü tanıması ilə bağlı siyasətinə ziddiyyət təşkil etdiyini bildirib. Beynəlxalq aləm Pekinin Krımla bağlı məsələyə münasibət bildirməsini istəyir. Çinli səfirin sözlərinə Baltik ölkələrinin Fransadakı səfirləri də sərt reaksiya veriblər. Belə çıxır ki, Kreml Rusiya imperiyasının keçmişdə istila etdiyi hansısa ərazini güc yolu ilə geri qaytarmaq istədikdə Pekin ona da haqq qazandıracaq".

**İsmayıl**

# "Qoy mandatını, çıx get"

## Spikerin müavini Vahid Əhmədova çağırış edib

**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib və deputatların cari məsələlərlə bağlı çıxışları dinlənilib. Parlament üzvlərinin çıxışları deputat Vahid Əhmədovun ötən həftə bloger Mehman Hüseynova verdiyi qalmaqallı müsahibəyə həsr olunub. Deputatlar Vahid Əhmədovun səsləndirdiyi fikirlərə sərt formada etirazlarını bildiriblər. Parlamentarilərin fikrincə, V.Əhmədovun açıqlamaları Milli Məclisin işgüzar nüfuzuna xələl gətirir, aparılan siyasətə ziddiyyət təşkil edir.**

**"Əsas məsələ millət vəkilinin Azərbaycan dövlətçiliyinə qərəzli münasibətidir"**

Deputat Fəzail Ağamalı bildirib ki, Vahid Əhmədov xoşagəlməz müsahibə ilə çıxış edib və dövlətin həyata keçirdiyi fundamental məsələlərə şübhə toxumu səpib. F.Ağamalı qeyd edib ki, onu narahat edən əsas məsələ millət vəkilinin Azərbaycan dövlətçiliyinə qərəzli münasibətidir: "O, ölkə prezidentinin sosial siyasətinə kölgə salır. Belə çıxır ki, uzun illər həyata keçirilən sosial siyasət heç bir nəticə verməyib. Onun bu müsahibəsi Milli Məclisin nüfuzuna da xələl gətirir, onun legitimliyi sual altına alınır. Azərbaycanda yalnız 3 nəfərin Milli Məclisə seçkilərdə ədalətli səs qazandığını söyləyir, digər Parlament üzvlərinin səs qazanmasını şübhə altına alır. Buna görə də mən bütün suallara cavab verilməsi üçün İntizam Komissiyasının sədr müavini kimi xahiş edirəm ki, məsələnin İntizam Komissiyasında müzakirə olunması üçün müvafiq tapşırıqlar verilməsinə imkan yaradasınız".

**"Qardaş, dost, müttəfiq haqqında belə söz demək olarmı, Vahid müəllim?"**

Deputat Ziyafət Əsgərov Vahid Əhmədovun Türkiyə haqqında fikirlərinə kəskin irad bildirib: "Vahid müəllim müsahibəsində deyir ki, Azərbaycanda hamının gözü var, İranın gözü var, Fransanın gözü var, Rusiyanın gözü var, Türkiyənin gözü var. Yaxşı, İranı başa düşdüm, Rusiyanı da başa düşdüm, Fransanı ruslar demiş "tem bolee" başa düşdüm, Türkiyənin burada nə



Vahid Əhmədovla bağlı Milli Məclisin İntizam Komissiyasının iclası keçiriləcək

gözü var? Bu həmin Türkiyədir ki, müharibə vaxtı "F-16"-larını saxladı burada, halbuki təlimə gəlmişdilər. Onlar burada, aeroportda gözlədilər, digər dövlətlərə mesaj verildi ki, hünəriniz var, Azərbaycana hücum edin, "F-16"-ları göydə görəcəksiniz. Bu, qardaşdır! Qardaş, dost, müttəfiq haqqında belə söz demək olarmı, Vahid müəllim? Vallah yaramaz! Siz dəfələrlə deyirsiniz ki, "Mən dövlət adamıyam", dövlət adamı dövlətin yanında olmalıdır, Mehman Hüseynovun, AXCP-nin, Müsavatın, İranın, Rusiyanın yox".

**"Dələduzun birinə müsahibə vermək nəyə lazımdır?"**

Deputat Siyavuş Novruzov deyib ki, Milli Məclisdə sosial, iqtisadi sahələr, bələdiyyələr və digərlərinin fəaliyyəti müzakirə olunur. Kimin sözü varsa, müzakirə olunan məsələlər çərçivəsində Parlamentdə tənqid də edə bilər, fikrini söyləyə, təklifini verə bilər. Bu da dövlətin inkişafına, işlərin yaxşı getməsinə kömək olar: "Dəfələrlə burada müxtəlif sahələr, iqtisadiyyat, sosial sahə, mənzil məsələləri ilə bağlı dinləmələr keçirmişik. Burada təhsillə bağlı ən kəskin fikirlər də deyilib. Bu gün Azərbaycana qarşı olan adamlara müsahibə verməyə nə ehtiyac var? Milli Məclisdə 30-dan artıq qeydiyyatdan keçən jurnalist, televiziya kanalları var, hər biri də deputatların çıxışlarını, rəylərini yayır, hamı da qulaq asır. Dələduzun birinə müsahibə vermək nəyə lazımdır? Nə milliyyəti məlumdur, nə təhsili var, bu kimdir? Bunun hansı sənəti var, niyə ondan qorxursunuz, nədən qorxursunuz? Gərək, belə şeylərdən uzaq olaq, belə şeylərə diqqət edək".

**"Belə çıxır ki, 2-3 deputatdan başqa hamısı xalq düşmənidir?"**

Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat Razi Nurullayev deyib ki, deputat Vahid Əhmədovun tərbiyəsiz bir şəxsə müsahibə verməsini, orada deputatların aşağılanmasına rəvac verməsini şiddətlə qınayır. Deputat onun bu müsahibəsini və fikirlərini Parlamentə və onun deputatlarına qarşı açıq-aydın təhdid kimi qiymətləndirib: "O tərbiyəsiz şəxs bir neçə ay öncə, üzr istəyirəm, bağışlasın məni xanım sədr və xanım deputatlar, Parlamentin önündə video çəkib göstərmişdi ki, deputatlara paz gətirib ki, istifadə etsinlər, daha əvvəl isə "qoz və xiyar gətirmişdim" deyir. Bu, açıq-aydın ən eybəcər təhqirdir. Belə çıxır ki, deputat Vahid Əhmədov da onunla razıdır. Belə çıxır ki, burada oturan deputatların 2-3 nəfərdən başqa hamısı xaindir, xalq düşmənidir, saxta seçilib, o zaman nə əcəb özünüzə yaraşdırıb burada oturursunuz? Mandatınızdan imtina edin. Bu qədər ağını çıxarmaq, haqsızlıq etmək olarmı? Sahibə Qafarovanın əməyini görməmək, onun dövlətimiz üçün etdiklərini gözardı etmək ən böyük insafsızlıq və həqarətdir".

**"Qalmaqalın səbəbkarı Vahid Əhmədovun özüdür"**

Deputat Aydın Mirzəzadə deyib ki, baş verən qalmaqalın səbəbkarı Vahid Əhmədovun özüdür: "O özü Milli Məclisin qaydalarına riayət etmədi". Deputat sözlərinə belə davam edib. Bloger də təxribatçı suallar qurmuşdu və Vahid Əhmədov blogerin qurduğu tələyə düşərək onun istədiyi cavabları verdi. O, sosial siyasəti kölgə altına saldı. Vahid Əhmədov Parlamentin legitimliyini sual altına qoyur. O, iki nəfərin adını çəkir və qalanların fəaliyyətini heç edir. Vahid müəllim, siz bizim fəaliyyətimizi niyə görmürsünüz?".

Parlamentin sədr müavini Fəzail İbrahimli bildirib ki, keçən iclaslarımızda qanunları müzakirə edirdik. Çox təəssüf ki, bu gün öz Parlamentimizin daxilində Azərbaycan dövlətçiliyinə zidd olan düşüncələr müzakirə olunur: "Burada fikir söylənildi ki, "Vahid Əhmədov tələyə düşdü". Qətiyyən bununla razı deyiləm. Vahid müəllim tələyə düşən adam deyil. Vahid müəllim nə eləyirsə, bilərək edir, nə danışırsa, düşünür, danışır. Bu, təsadüfi hadisə deyil. Adətən, dövlətin, millətin çətin günlərində ağsaqqallara böyük ehtiyac duyulur. Bu çətin məqamlarda onların sözünə, nəfəsinə böyük ehtiyacımız var, çox təəssüf ki, geniş həyat təcrübəsi, bütün hökumətlərdə üzdə olan Vahid müəllim bu gün özünü müzakirə obyektinə çevirib. Deyir ki, 3 deputatdan başqa hamı saxtakardır. Niyə mənim heysiyyətimə toxunursan? Qardaş, adama deyərlər ki, bəyənmirsən, oturma da, qəbul etmirsənsə, vicdanın bu şeylərə dözmürsə, açıq şəkildə qoy mandatını, çıx get. De ki, mən bacarmadım burada".

**"Vahid Əhmədovun müsahibə zamanı səsləndirdiyi ifadələr hiddət doğurur"**

Deputat Kamran Bayramov bildirib ki, Vahid Əhmədovun müsahibə zamanı səsləndirdiyi ifadələr hiddət doğurur. "Bu fikirləri Vahid müəllimə yaraşdırmadım. Vahid müəllim Azərbaycanda keçirilən demokratik seçkiləri şübhə altına alır. Əgər onun əlində faktları varsa, qoy təqdim etsin, ancaq edə bilmirsə, onun bu cür fikirlər səsləndirməsi əsassızdır. Onun fikirləri deputatların nüfuzuna xələl gətirir", - deyə deputat bildirib. Deputat Elşən Musayev qeyd edib ki, Vahid Əhmədovun fikirləri qərəzli xarakter daşıyır. "Bu insan töhmətə layiqdir. Xahiş edirəm, Milli Məclisin İntizam Komissiyasında bu məsələyə baxılsın". Digər deputatlar da Vahid Əhmədovun fikirlərini sərt tənqid ediblər.

**"Bütün suallara cavab verməyə hazıram"**

Deputat Vahid Əhmədov isə qeyd edib ki, hər zaman dövlətin yanında olub, dövlətçilik mövqeyini müdafiə edib, yenə də müdafiə edir: "Həm Milli Məclisdə, həm də mətbuatda hamıya aydındır ki, mən hansı mövqedə olmuşam. Burada Fəzail Ağamalı elan etdi ki, mənim məsələmə İntizam Komissiyasında baxılsın, etiraz etmirəm, baxsınlar. Mən bütün suallara cavab verməyə hazıram".

Müzakirələrdən sonra Milli Məclisin deputatı Vahid Əhmədovla bağlı İntizam Komissiyasının iclasının keçirilməsi qərarlaşdırılıb. Spiker Sahibə Qafarova İntizam Komissiyasının sədri deputat Eldar İbrahimova tapşırıq verib: "Bu gün bu məsələ ilə məşğul olun, İntizam Komissiyasını yığın, bu məsələ ilə çox ciddi məşğul olun və mənə məruzə edin".

**İsmayıl Qocayev**

# Azərbaycan "Həmrəylik Halqası"na möhürünü vurdu

## Bu anlaşma Azərbaycan ilə Avropa arasında yeni əməkdaşlıq səhifəsidir

**Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan və Azərbaycan arasında "Həmrəylik Halqası"yla Azərbaycan qazının tədarükünə dair memorandum imzalanıb. Memorandumun imzalanma mərasimində dövlət başçısı İlham Əliyev də iştirak edib. Prezident İlham Əliyev bildirib ki, imzalanan memorandum Azərbaycana Avropaya daha çox qaz tədarük etmək imkanı verəcək. Dövlət başçısı qeyd edib ki, Azərbaycan təkcə enerji sektorunda deyil, digər sahələrdə də Avropanın mühüm və sınaqdan çıxmış tərəfdaşıdır:**

"Azərbaycan enerji təchizatı coğrafiyasını 6 ölkədən ən azı 10 ölkəyə çatdıracaq". Ölkə rəhbəri xatırladıb ki, ötən ilin iyul ayında imzalanmış Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu Azərbaycandan Avropaya qaz tədarükünü artırmağa imkan verəcək: "Bu ilin sonuna qədər bütün interkonnektorlar birləşdirilərsə, biz Macarıstan və Slovakiyaya tədarüklərə başlamağı planlaşdırırıq. Azərbaycan enerji təchizatı coğrafiyasını 6 ölkədən ən azı 10 ölkəyə çatdıracaq ". Azərbaycanın energetika naziri Pərviz Şahbazov bildirib ki, Azərbaycan tərəfdaşlarının etibarlı və dayanıqlı şəkildə qaz təminatı prosesində strateji rol oynayır. Onun sözlərinə görə, Azərbaycan Cənub Qaz Dəhlizi çərçivəsində iki ildən artıq öz tərəfdaşlarının etibarlı və dayanıqlı qaz tədarükünü təmin edir. Nazir onu da qeyd edib ki, imzalanan memorandum həmrəylik təşəbbüslərinə doğru böyük bir addımdır. Təşəbbüs təkcə iştirakçı tərəflər arasında qaz tədarükünün artırılması demək deyil, həm də daha çox Avropa ölkələrinə qazın tranzitinin təmin edilməsi deməkdir. Çıxış zamanı Pərviz Şahbazov hazırkı reallıqları nəzərə alaraq Avropanın dayanıqlı və alternativ mənbələrdən qazın tədarükü üçün infrastruktur layihələrinin inkişafının vacibliyini də qeyd edib. Bolqarıstan energetika naziri Rosen Xristov deyib ki, enerji təhlükəsizliyi istiqamətində ən önəmli addımlardan biri atıldı: "Mən çox şadam ki, Bolqarıstan bu layihənin təşəbbüskarıdır. İlk müzakirələrdən sadəcə bir neçə ay keçir və indi addımlar atılır. Mən bizi stabil platforma ilə təmin edən prezidentlərə siyasi dəstəklərinə görə təşəkkür edirəm".



Bakının regional geosiyasi və geoiqtisadi mövqeyi möhkəmlənməkdədir

Rumıniyanın energetika naziri Vircil Daniyel Popesku bildirib ki, Azərbaycan bu təşəbbüsdə əsas oyunçudur və həm Bolqarıstanın, həm də Rumıniyanın strateji tərəfdaşıdır: "Bizim bu ölkə ilə uzunmüddətli əlaqələrimiz var. Azərbaycan etibarlı tərəfdaşdır. Azərbaycan regionumuzun enerji təchizatının təhlükəsizliyində vacib rol oynayır".

Avropa İttifaqının (Aİ) enerji məsələləri üzrə komissarı Kadri Simson bəyan edib ki, 2022-ci il enerji təhlükəsizliyi baxımından Avropa üçün mürəkkəb bir il oldu. O bildirib ki, Avropa İttifaqı blokun enerji təchizatının təhlükəsizliyi üçün plan qəbul edib: "Qəbul etdiyimiz plan və atdığımız addımlar enerji təchizatında əhəmiyyətli dəyişiklik yaratdı. Rusiya qazından asılılıq aradan qalxdı və enerji təchizatında diversifikasiyaya nail olmaq mümkün oldu. 2023-cü ilin başlanğıcından bəri bizim qaz kəmərləri 10 faizdən az Rusiya qazı idxal edir. Bu il ərzində Aİ həm də təhlükəsiz təchizatı gücləndirib. Qaz təchizatı üçün vacib infrastrukturlar qurulub və qurulur, xüsusilə də Mərkəzi və Cənub-Şərqi Avropada bu infrastrukturlar yaradılır. Qaz vacib enerji mənbələrindən biri olaraq qalır. Buna görə də bizim qaz infrastrukturuna investisiya qoymağımız vacibdir, xüsusilə də qeyri-Rusiya mənbələrindən Avropaya qazın ötürülməsi üçün. Bu, xüsusilə də Mərkəzi və Şərqi Avropa üçün vacibdir. Nəzərə alsaq ki, onlar uzun illər Rusiya qazından asılı olub". Simson qeyd edib ki, Ukraynadakı müharibə başlayan zaman bu ölkələrin Rusiya qazından imtinası onlar üçün ciddi çətinliklər yaradıb və Avropa İttifaqı bunun fərqindədir və Avropa Komissiyası bu çətinliklərin öhdəsindən gəlmək üçün həll yolları üzərində işləyib: "Buna görə də Slovakiya, Macarıstan, Bolqarıstan, Rumıniya və Azərbaycanın liderlərinin bu istiqamətdə əməkdaşlığı, imzalanan Anlaşma Memorandumu vacibdir. Bu, regionun effektiv şəkildə qaz təchizatına töhfə verəcək. Azərbaycan Avropa İttifaqının bu sahədə etibarlı tərəfdaşıdır. Bu ilin qışında Azərbaycandan idxal olunan qaz enerji təchizatında ciddi rol oynayıb və Avropa Komissiyası bu səyləri yüksək qiymətləndirir". O vurğulayıb ki, Avropa Komissiyası region ölkələrinin və Azərbaycanın bu şaxələndirmədə təşəbbüslərini dəstəkləyir.

**Millət vəkili Vüqar Bayramov deyib ki, Anlaşma Memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Deputatın sözlərinə görə, əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək:** "Bu anlaşma Azərbaycan ilə Avropa arasında yeni əməkdaşlıq səhifəsidir. Azərbaycanın regional geosiyasi və geoiqtisadi mövqeyi möhkəmlənməkdədir. Qeyd edim ki, Bolqarıstan Şərqi Avropada Azərbaycanın strateji tərəfdaşlarındadır. Deputatın sözlərinə görə, iki ölkə arasındakı ticarət dövriyyəsindəki artımlar münasibətlərin inkişafını bir daha təsdiq edir. 2022-ci ildə ölkələr arasındakı ticarət dövriyyəsi 325 milyon 391 min dollar olub. Bu o deməkdir ki, ötən il Azərbaycan ilə Bolqarıstan arasındakı ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 4.5 dəfə artıb. 2022-ci ildən başlayaraq Azərbaycan Bolqarıstan ilə enerji əməkdaşlığını gücləndirib. Bolqarıstan Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru (IGB) vasitəsilə Azərbaycan mavi qazını istehlak edir. Bu il Bolqarıstana 1 milyard kub metrdən çox qaz nəql ediləcək. İstər Cənub Qaz Dəhlizi, istər də Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun reallaşması Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində mümkün oldu. Bunu Avropa rəsmilərinin etiraf etməsi də məhz ölkəmizin regional enerji təhlükəsizliyinin formalaşmasına xüsusi töhfəsini bir daha təsdiq edir.

İGB-nin ötürmə qabiliyyətinin 3,5 milyard kubmetrdən 5,5 milyard kubmetrdək artırılması isə Bolqarıstan və Ruminiya ilə yanaşı Macarıstan, Slovakiya, Şimalı Makedoniya kimi ölkələrin də Azərbaycan qazını almasına imkan yarada bilər".

**İsmayıl Qocayev**

# Qarabağın bütün ərazilərində su çatışmazlığı həll ediləcək

## Sərsəng ətrafında yerləşən terrorçu rejimin dəstələri Azərbaycan ordusunun legitim hədəfidir

**Sərsəng su anbarında suyun səviyyəsi getdikcə azalır. Ekoloji fəlakətin yaranmasına səbəb separatçıların elektrik enerjisinin böyük hissəsini buradakı SES-dən əldə etməsi, nəticə etibarilə, həddindən artıq yüklənmədir.**



Son məlumatlara görə, suyun səviyyəsi 20 metr aşağı düşüb və bu tendensiya davam edir. Mövcud vəziyyət rəsmi Bakının Sərsəngin xilası üçün hansı addım ata biləcəyi məsələsini də gündəmə gətirir.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Sərsəngi xilas etmək məqsədilə ekoloji müstəvidə hərəkətə keçmək lazımdır. Analitik hesab edir ki, Bakı ermənilərlə təmaslar quraraq, su anbarına baxış keçirə və ekoloji fəlakətin qarşısını almağın yollarını axtara bilər:** "Ötən ilin 24 avqust tarixində Meliorasiya və Su Təsərrüfatı ASC-nin nümayəndələri ermənilərlə birlikdə Sərsəngə baxış keçirmişdi. Su anbarından birgə istifadə ilə bağlı razılıq əldə olunmuşdu. Digər razılaşma əraziyə baxışın gələcəkdə də mütəmadi həyata keçirilməsinə dair idi. Lakin sonrakı dövrdə əraziyə baxışın keçirilməsi mümkün olmayıb. Rəsmi Bakının SES-dəki yüklənmənin aradan qaldırılmasını tələb etməsi də versiyalardan biridir. Hərçənd separatçıların buna əməl etməyəcəyi ehtimalı daha yüksəkdir və onların cavabını da təxmin etmək çətin deyil: "SES-dəki yüksəlməni azaltmaq üçün Ermənistandan elektrik enerjisinin verilməsi bərpa olunmalıdır, əks təqdirdə, enerji problemini həll etmək mümkün deyil". Mövcud vəziyyət və versiyalar ekoloji müstəvidə addımların atılmasının nəticə verə biləcəyi gözləntisini azaldır. Digər yol isə Sərsəngə nəzarətin bərpa olunması məqsədilə hərbi müstəvidə hərəkətə keçməkdir".

**Ekspert xatırladıb ki, ötən ilin 3 avqustunda separatçıların təxribatına cavab olaraq keçirilən əməliyyatda da ordumuz PUA-larla Sərsəng su anbarının yaxınlığında yerləşən terrorçuların kazarmalarına zərbələr endirmişdi:** "Bu o deməkdir ki, Sərsəng ətrafında yerləşən terrorçu rejimin dəstələri Azərbaycan ordusunun legitim hədəfidir. Bakı bu hədəfləri sıradan çıxarmaq məqsədilə hərəkətə keçə, buna paralel olaraq, su anbarına nəzarəti bərpa edə bilər. Su anbarına nəzarət bərpa edilərsə, anbarın üzləşdiyi ekoloji fəlakətin qarşısı alınacaq. Qarabağın digər ərazilərinin su çatışmazlığı həll ediləcək. Azərbaycanın bir çox rayonunun üzləşdiyi su qıtlığı probleminin həllində yeni mənbə əldə ediləcək. Sərsəngə nəzarətin bərpa edilməsi həm də separatçıların elektrik enerjisi mənbəsindən böyük ölçüdə məhrum olmasına, daha çətin vəziyyətə düşmələrinə səbəb olacaq amildir. Bu isə onların Bakıya təslim olmasını, yaxud Qarabağdan qaçmasını sürətləndirə bilər. Qarabağdakı ermənilərin digər ehtiyacları kimi elektrik enerjisi təminatı da reinteqrasiya prosesi çərçivəsində Azərbaycan hökuməti tərəfindən həll edilə bilər".

**İsmayıl**

# Tarixi zəfər

## Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəmiz quruldu

**Uzun müddətdir Azərbaycanın Xankəndi şəhərində məskunlaşan qeyri-qanuni erməni silahlı dəstələrinin bölgəyə silah daşıdığı müşahidə olunurdu. Hərbi təyinatlı yüklərin daşınması 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanata zidd olsa da, ermənilərin bütün qanunsuz addımları Rusiya sülhməramlılarının gözü qarşısında baş verirdi. Sülhməramlıların silah daşınmasında ermənilərə yardım etməsi isə səbrimizin daşmasına səbəb oldu.**

Azərbaycanın dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, nə Ermənistan, nə də Rusiya buna məhəl qoyurdu. Yekunda Azərbaycan öz haqlı mövqeyinə və bütün beynəlxalq hüquqlara uyğun olaraq lazımi və zəruri addımı atdı. Bununla da xalqımızın səbirsizliklə gözlədiyi tarixi hadisə baş verdi və aprelin 23-də Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəmiz quruldu. Əlbəttə ki, bu, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın ən böyük diplomatik zəfərlərindən biri oldu. Ekspertlərin fikrincə, Laçın-Xankəndi yolunda sərhəd-keçid məntəqəsinin yaradılması suveren hüquqlarımızın qorunması, təhlükəsizliyimizin təmini istiqamətində atılan mühüm, tarixi addımlardan biridir. Bununla yanaşı, Cənubi Qafqazda sülhün, sabitliyin, rifahın və əmin-amanlığın təməlinin qoyulması istiqamətində mühüm addımdır. Bu addım dövlətimizin təhlükəsizlik məsələsində kimsəyə güzəştə getmədiyini, öz suveren hüquqlarının tam şəkildə bərpası üçün sona qədər iradə sərgiləməyə qadir olduğunu göstərdi. Başlıcası, rəsmi Bakı Laçın-Xankəndi yolunda sərhəd-keçid məntəqəsi yaratmaqla sübut etdi ki, Azərbaycan sadəcə öz təhlükəsizliyni deyil, həm də regional təhlükəsizliyi təkbaşına təmin etməyə qadirdir və bunun üçün kifayət qədər gücü var. Son zamanlar xaricdə ölkəmizə qarşı aparılan çirkin təbliğatın əsas iddialarından biri odur ki, Azərbaycan Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyini təmin edə bilməz. Həmçinin guya, Bakının məqsədi burada "etnik təmizləmə" həyata keçirməkdir. Bu təbliğata uyan bəzi dövlətlərin rəsmiləri də yersiz olaraq öz çıxışlarında və bəyanatlarında Azərbaycanı Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyini təmin etməyə çağırırlar. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır, ancaq cinayətkar elementlər 30 il burada yaşayan insanları girov saxlamaqdadır. Ona görə də Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi və hüquqlarının təminatını Azərbaycandan tələb edən qüvvələr Laçın yolunda DSX postunun qoyulmasını bu baxımdan qiymətləndirməli və alqışlanmalıdır. Hər hansı bir yerdə insanların hüquq və təhlükəsizliyinin təmin edilməsindən bəhs edilərkən həmin ərazidə konstitusiya quruluşunun və legitim dövlət orqanlarının normal fəaliyyətinin bərqərar olunması ilkin şərtlərdəndir. Bu məqsədlə həmin ərazi qeyri-qanuni cinayətkar elementlərdən və silahlı dəstələrdən təmizlənməli və hüququn aliliyi təmin edilməlidir. Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması Qarabağı cinayətkar elementlərdən və qeyri-qanuni silahlı birləşmələrdən azad etməklə, buradakı erməni əhalisini uzun illərin girovluğundan azad edəcək. Eyni zamanda onların həqiqi hüquq və təhlükəsizliyini təmin etməyə imkan verəcək. Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması həm qonşu ölkələrdə, həm də beynəlxalq aləmdə rezonans doğurub. Rusiya Xarici İşlər Nazirliyinin aprelin 24-də açıqlanmış bəyanatında belə deyilib: "Dağlıq Qarabağda Rusiya sülhməramlı kontingentinin məsuliyyəti zonasında, Ermənistan-Azərbaycan təmas xəttində, habelə rəsmi Bakı və İrəvan arasında dialoqda yaranmış vəziyyətlə bağlı dərin narahatlığımızı ifadə edirik". Bəyanatda qeyd olunub ki, Rusiya bölgədə atəşkəs rejiminin pozulması hallarının, habelə hər iki tərəfdən qurbanların verilməsi ilə nəticələnən insidentlərin artmasından narahatdır: "Azərbaycan və Ermənistanın "ictimai məkanında ittihamedici və aqressiv ritorikanın" şiddətlənməsi narahatlıq doğurur. 23 aprel hadisəsinin son inkişafı kontekstində istər Laçın dəhlizinin iş rejimində razılaşdırılmamış dəyişikliyin, istənilən birtərəfli addımların qeyri-məqbul olduğunu xüsusilə qeyd edirik". Kremlin sözçüsü Dmitri Peskov deyib ki, Azərbaycanın Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi qurması Rusiya Federasiyasından əlavə vasitəçilik səyləri tələb edəcək. Peskov etiraf edib ki, Azərbaycanın Laçın dəhlizində sərhəd məntəqəsi qurmasından sonra yaranmış vəziyyət "həqiqətən də sadə deyil" və Rusiya tərəfindən "əlavə səylər", İrəvan və Bakıdan isə "üçtərəfli bəyanatın həyata keçirilməsinə alternativin olmadığının" başa düşülməsini tələb edəcək: "Moskva üçtərəfli bəyanatların icra olunması üçün vasitəçilik səylərini davam etdirəcək".



Bu, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın ən böyük diplomatik zəfərlərindən biri oldu

Vaşinqton da Azərbaycanın Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi yaratması ilə bağlı "dərin" narahatlığını ifadə edib. ABŞ Dövlət Departamentindən bildirilib ki, bu addım sülh prosesinə etimadın yaradılması səylərini sarsıdır: "Biz bir daha bildiririk ki, Laçın dəhlizində insanların sərbəst və açıq gediş-gəlişi və ticarət olmalıdır. Tərəfləri sülh danışıqlarını bərpa etməyə, sərhəddə təxribat və düşmənçilik hərəkətlərindən çəkinməyə çağırırıq".

Avropa Birliyinin baş diplomatı Jozep Borrell deyib ki, AB regiondakı vəziyyətin həllində Ermənistan və Azərbaycana kömək etməyə hazırdır: "Bu məqsədlə Ermənistan ərazisində missiya yerləşdirilib".

Azərbaycan Xarici İşlər Nazirliyindən isə bildirilib ki, Azərbaycan tərəfindən öz suveren ərazisində sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis etməsi ölkələrinin suveren və legitim hüququdur: "Bu addımın üçtərəfli bəyanata, hər hansı bir beynəlxalq sənədə və ya məhkəmə qərarına zidd olduğu iddiasının da heç bir əsası yoxdur".

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri Samir Hümbətov deyib ki, Azərbaycan müstəqillik əldə etdiyi dövrdən etibarən ilk dəfə idi ki, dövlət sərhədlərimiz tam şəkildə nəzarətimizə götrülmüş oldu.** Analitik qeyd edib ki, 10 noyabr 2020-ci ildə üçtərəfli bəyannamənin imzalanması ilə Laçın dəhlizi müqavilənin şərtlərinə uyğun olaraq Rusiya "sülhməramlıları" Laçın dəhlizinə nəzarəti müqavilənin prinsiplərinə uyğun həyata keçirməli idilər. Amma təəssüflə demək lazımdır ki, 2 il 5 ay 13 gün ərzində Ermənistan və Qarabağdakı separatçı qüvvələr tərəfindən hər cür təxribatlar və qanunsuzluqlar baş verdi. "Sülhməramlılar" isə bütün baş verənləri sanki görməzdən gəlirdilər: "Fransada prezidentliyə namizəd Valeri Pekresin də, Rusiya Dövlət Dumasının deputatı Vitali Milonovun da Azərbaycanın Xankəndi şəhərinə qanunsuz səfər etməsi üçün şərait yaradılmasının da məsuliyyəti məhz Rusiya "sülhməramlıları"nın üzərinə düşürdü.

Əlbəttə, baş vermiş bütün hadisələrin əsas kökündə dayanan səbəblərin birincisi isə Rusiya "sülhməramlıları" tərəfindən Laçın dəhlizinə nəzarətin düzgün təşkil edilməməsindən qaynaqlanırdı. Azərbaycan tərəfi ən yüksək səviyyədə xəbərdarlıq edərək 10 Noyabr üçtərəfli bəyannamənin şərtlərinin icrasının vacibliyinə vurğu etmişdi. Təbii ki, nə Ermənistan, nə Rusiya, nə də Azərbaycanın Qarabağ bölgəsindəki separatçı rejim Azərbaycanın xəbərdarlıqlarına ciddi əhəmiyyət verməməyə çalışırdılar. Azərbaycan üçün qırmızı xəttin tapdanması ötən ilin dekabr ayının 3-dən başladı. Məmurlarımızın və mediamızın Azərbaycanın suveren ərazilərinə buraxılmaması artıq bardağı daşırdı. Həmçinin Fərrux əməliyyatı ilə Azərbaycan səssiz diplomatiya yolunu tutmağa başladı. Yəni səssiz və planlı şəkildə əməliyyatları keçirməklə əsas strateji nöqtələr Azərbaycanın nəzarətinə keçməyə başladı. İndi artıq Laçın dəhlizi Azərbaycanın nəzarətindədir.

Hesab edirəm ki, bu addım çox doğrudur və zamanında atıldı. Azərbaycan Prezidenti İlham Əliyevin açıq mətnlə qarşı tərəfə verdiyi mesajlar artıq təcrübədə öz əksini tapmağa başladı".

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov da "Şərq"ə bildirib ki, Ermənistanla şərti sərhədimizin Laçından keçən hissəsində nəzarət-buraxılış məntəqəsinin yaradılmasını hamımız qürur və sevinc hissi ilə qarşıladıq. Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin qurulması, həqiqətən də, günün ən xoş xəbəri oldu:** "Bu hadisə 44 günlük Vətən müharibəsindəki Qələbəmiz qədər önəmli və tarixi hadisədir. Sərhədlərimizin bu hissəsinə nəzarət hüququna yiyələnməyimiz bölgədə tamamilə yeni situasiya yaradacaq. Məsələ sadəcə Laçın yolunda sərhəd və gömrük rejiminin bizim nəzarətimizə keçməsindən ibarət deyil. Bu hadisənin baş verməsi ilə ilk növbədə Rusiyanın Ermənistanla birgə "icad" etdiyi "Laçın dəhlizi" hüquqi qüvvəsini itirdi və avtomatik olaraq "dəhliz"dən yola çevrildi. Bu, bizim üçün olduqca mühüm nəticədir. Digər önəmli nəticə isə Xankəndidə Azərbaycan yurisdiksiyasının bərpası istiqamətində prosesin önünün açılmasından ibarətdir. Beləliklə, biz bu tarixi məqamın gerçəkləşməsinə bir addım da yaxınlaşmış olduq. İndi tam əminliklə deyə bilərik ki, biz 44 günlük müharibədə əldə etdiyimiz nəticələrin möhkəmləndirilməsi istiqamətində inamla irəliləyirik. Üçrəngli bayrağımızın Qarabağın ermənilər yaşayan hissəsində dalğalanacağı gün artıq elə də uzaqda deyil".

**İsmayıl Qocayev**



# "Dəfələrlə ölüm riski ilə üz-üzə qalmışıq"

## Fazil Mustafa: “Belə atəşin altından sadəcə yaralanaraq çıxmaq inanılmaz bir haldır”

**Sui-qəsd cəhdi nəticəsində çiyin və ayaq nahiyəsindən xəsarət alan millət vəkili Fazil Mustafa "Şərq"in suallarını cavablandırıb.**

**- Fazil bəy, indi özünüzü necə hiss edirsiniz, müalicəniz davam edirmi?**

- Müalicəm evdə davam edir. Artıq tikişlərim söküb. Bir neçə günə ayağımın reabilitasiyasına başlanacaq. Qolumun reabilitasiyasına isə 2-3 həftədən sonra başlanılacaq. Yəni həkimlərin müəyyən etdiyi istiqamət üzrə prosedur davam edir.

**- Aktiv fəaliyyətə nə vaxt başlaya bilərsiniz, həkimlər nə deyirlər?**

- Yəqin ki, yaxın bir aya aktiv fəaliyyətə başlaya biləcəm".

**- Dostlarınız, yaxınlarınız ziyarətinizə gəlirmi?**

- Çox adam məni ziyarətə gəlir. Sağ olsunlar, ya telefonla əhvalımı soruşurlar, ya da yanıma gəlirlər. Hətta bir çox hallarda əziyyət çəkməmələri üçün gəlməmələrini xahiş edirəm. Amma onlar gəlir və vəziyyətimi gördükdən sonra rahatlayaraq, təskinlik tapırlar.

**- Sui-qəsd cəhdi psixoloji cəhətdən sizə necə təsir göstərib, hansısa qorxu və təşviş hissi varmı?**

- Hadisə baş verəndə də hansısa qorxu hissi yaşamadım. Çünki bu, bizim ümumi taleyimizdir və dəfələrlə belə ölüm riski ilə üz-üzə qalmışıq. Bu da onlardan biri idi. Belə atəşin altından sadəcə yaralanaraq çıxmaq isə inanılmaz bir haldır. Ancaq geriyə dönəndə həyatımızın müxtəlif epizodlarında belə ölüm riski həmişə olub. Ona görə də bu hadisə məndə hansısa psixoloji sarsıntı yaratmayıb. Əksinə, daha da qətiyyətlə yolumuza davam etmək niyyətindəyik.

**- Avtomobilinizin aqibəti necə oldu, dəyən ziyanı kim ödəyir?**

- Adi qəza olduqda dəyən ziyan sığorta şirkəti tərəfindən ödənilir. Amma avtomobil belə bir hadisədən sığorta olunmayıb. Ona görə də məhkəmədə zərər yetirən şəxslərə qarşı iddia qaldırılacaq. Lakin maşının təmiri və başqa məsələlər öz boynumdadır. Müəyyən hüquqi prosedurları keçdikdən sonra təmirə vermişəm ki, maşınsız qalmayım. Yəni sağalana qədər maşının da hazır olacağını güman edirəm.

> “Laçın yolunda postun qurulması Şuşanın işğaldan azad edilməsi qədər böyük bir hadisədir”

**- Sizə qarşı olan sui-qəsd cəhdində "düymə" kim və hansı dairə tərəfindən basılıb? Kimlərin "əli" ola bilər?**

- İstintaq davam edir və məsələ hərtərəfli araşdırılır. Birmənalı şəkildə bilinən istiqamət var. Bu da hüquq-mühafizə orqanları tərəfindən açıqlandı. Qonşu ölkədən istiqamətlənən bir məsələdir və iştirakçılar da birbaşa ora ilə bağlıdır. Yəni buna hansısa azərbaycanlının açdığı atəş kimi baxmaq olmaz və bütövlükdə düşmənlərimiz kontekstində yanaşılmalıdır. Bu gün Ermənistan və İran kəşfiyyatına işləyən hər bir "azərbaycanlı" bizim üçün düşmən hesab edilir. Ona görə də bu təkcə mənə qarşı yox, bütün Azərbaycanı sevənlərə qarşı yönələ bilər. Bu baxımdan dövlətimiz üçün təhlükəyə çevriləcək şəxsləri zərərsizləşdirməyə çalışmalıyıq.

**- Bir az da son siyasi gəlişmələrdən danışaq. Azərbaycanın Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qurmasını necə dəyərləndirirsiniz?**

**Artıq belə deyə, düşünə bilərikmi ki, Qarabağ tamamilə Azərbaycanın nəzarətinə keçir?**

- Mənə elə gəlir ki, biz Azərbaycan cəmiyyəti olaraq, hansı tarixi günləri yaşadığımızın fərqində deyilik. Bu hadisələr bizə sadə gəlir. Lakin mərhələli şəkildə diqqət yetirsək, görərik ki, Azərbaycan Prezidentinin izlədiyi trayektoriya nə qədər dəqiq cilalanmış və cəsarətli siyasətin gerçəkləşməsindən xəbər verir. Bəzən cəmiyyət gələcəyi bilmədiyi üçün, prosesi hazır külçə kimi görməyə alışır. Amma belə olmalı deyil. Bu proseslərin arxasında böyük həyəcan, zəhmət və diplomatik çalışmalar yatır. Burda Sərhəd Qoşunlarının, Xüsusi Xidmət və hüquq-mühafizə orqanlarının çalışması sadə bir proses deyil. Bunlar mürəkkəb bir mexanizmin çevik çalışmasından xəbər verir. Laçın yolunda postun qurulması Şuşanın işğaldan azad edilməsi qədər böyük bir hadisədir. Artıq Azərbaycan postmüharibə dönəmindən bu yana sərhədlərində tam söz sahibi olduğunu praktiki şəkildə ortaya qoydu. Ona görə fədakarlıq edən insanların zəhmətini bəsitləşdirmək olmaz. Buna böyük rakursdan baxmalıyıq. Digər tərəfdən, məntəqənin qurulması ekofəallarımızın əməyinin nəticəsi kimi də dəyərləndirilməlidir. Onlar zəmini hazırlamasa idi, biz çətinlik çəkərdik. Yəni burada hamının payı var. Payı olmayanlar isə "Xankəndidə niyə bayrağımız dalğalanmır?" və "Rus sülhməramlılarını niyə çıxarmırıq?" deyə qışqırıq salanlardır. Yəni burada həm də söhbət kursu passiv də olsa, dəstəkləməkdən və Azərbaycan Respublikasının Prezidentinə güvənməkdən gedir. Bizi tələsdirməyə çalışan "vətənpərvərlər" gördülər ki, prosesi səbirlə irəlilətmək lazımdır.

**- Partiyalar haqqında yeni qanun layihəsi bizə nə vəd edir?**

- Qanunvericilikdə dəyişiklik olub və 5 min üzvü olan partiyalar qeydiyyat üçün müraciət edə bilərlər. Bu limitin qoyulması isə çox önəmlidir. Çünki 5 min üzvü olmayan heç bir partiya özünü ciddi qəbul etdirə bilməz. Siyasi fəaliyyətlə məşğul olanların cəmiyyətdə bu qədər dəstəyinin olmaması mümkün deyil. Bu baxımdan da siyasi fəaliyyətlə məşğul olan şəxslər və subyektlər qanununun tələbinə əməl etməlidir. Kiçik bir qurum halında fəaliyyət göstərmək partiyanın elə də ciddi bir obrazda təqdim edilməsi üçün şərait yaratmır.

**Söhbətləşdi: Nihat Müzəffər**

# Biz bütün ssenarilərə hazırıq

## Azərbaycan sərhəd-keçid məntəqəsi quraşdırmaqla gerçək tarixin necə yazıldığını göz önünə sərdi



**"Saxta "soyqırımın" anıldığı 24 apreldən bir gün öncə Azərbaycan dövləti Laçın yolunun başlanğıcında sərhəd-keçid məntəqəsi quraşdırmaqla gerçək tarixin necə yazıldığını və nə olduğunu bütün çılpaqlığı ilə göz önünə sərdi".**

Bunu millət vəkili Sahib Alıyev deyib. Deputat bildirib ki, bununla da saxta "soyqırımı" milli özünütəqdim və özünütəsdiq fürsəti olaraq dəyərləndirənlərə bir daha ayrı-ayrı güclərin əlində geosiyasi alət olmağın perspektivsizliyi başa salındı: "Bəzi ölkələrdə bu olay Ermənistanın fakt qarşısında qoyulması kimi qiymətləndirilir. Xeyr, bu, Ermənistandan çox, oradakı xəstə təfəkkürlü şəxsləri revanşizmə həvəsləndirən yırtıcı dövlətləri, Azərbaycanın ikinci Qarabağ savaşındakı zəfərini həzm etməyənləri fakt qarşısında qoymaq idi. Söhbət Fransadan, İrandan və digərlərindən gedir. ABŞ-dəki bəlli çevrələrin və Fransanın Laçın yolunda sərhəd-keçid məntəqəsinin qurulmasını pisləyən açıqlamalarını ikili standart yox, məhz ikiüzlülük, gözdən pərdə asmaq kimi qiymətləndirirəm. Bəyəm onlar üçtərəfli bəyanatın 9-cu bəndini yerinə yetirməməklə 6-cı bəndin də üstündən xətt çəkdiklərini bilmirdilər? Azərbaycan Prezidentinin hələ 2021-ci ilin dekabrında Brüsseldə Laçın yoluyla Zəngəzur dəhlizinin eyni statusluluğu haqda dediklərini unutmuşdular? Əlbəttə, yox. Beləliklə, cənab İlham Əliyev həm sözügedən dövlətlərə, həm də digərlərinə növbəti dəfə göstərdi ki, biz bütün ssenarilərə hazırıq".

**Parlament üzvü diqqətə çatdırıb ki, Böyük Britaniyanın müstəqil tədqiqat qurumlarının hesabatlarında göstərilir ki, Ermənistan ötən il ABŞ-dən, Avropa Birliyindən çip və prosessor alaraq həmin məhsulların 97 faizini Rusiyaya ötürüb:** "Maraqlıdır, başqa dövlətlər Rusiyaya qarşı sanksiyanı azacıq pozarkən üstlərinə yerindiyi halda niyə Ermənistanın bu hərəkətlərinə göz yumulur?! Ermənistanın Rusiyanın proksisi funksiyasını yerinə yetirdiklərini bildikləri halda niyə səslərini çıxarmırlar? Əlbəttə, onları 30 ildə yaxşı tanıdığımızdan suallar ritorikdir".

**İsmayıl**

# Azərbaycanda da 4 günlük iş həftəsi təcrübədən keçirilə bilər

## Lakin ölkə iqtisadiyyatı buna tam hazır olmalıdır



> “Ölkəmizdə iş günlərinin azaldılması yalnız dövlət orqanlarında mümkün ola bilər. Amma bu hal cəmiyyətdə diskriminasiyaya səbəb olar”

**Qazaxıstan iyulun 1-dən ölkədə dördgünlük iş həftəsi tətbiq etməyə hazırlaşır. Respublikanın Əmək Məcəlləsinə müvafiq dəyişikliklər edilib, ölkə Prezidenti Kasım-Jomart Tokayev bu dəyişiklikləri bəyənib.**

"Şərq" xəbər verir ki, Qazaxıstan Respublikası əmək qanunvericiliyinə edilən yeniliklərin məqsədi ölkə sakinlərinin istirahət etmələri üçün onlara daha çox vaxt verməkdir. Əmək Məcəlləsində beşgünlük və altıgünlük iş həftələri də nəzərdə tutulub. Qeyd edilir ki, iş həftəsinin müddəti tərəflər arasında razılaşmaya əsasən müəyyən olunur. Bəzi təşkilatlarda beşgünlük və altıgünlük iş həftələri növbələşdirilə bilər. İş həftəsinin uzunluğundan asılı olmayaraq bazar günü ümumi istirahət günüdür. Beşgünlük və altıgünlük iş həftəsində ikinci və üçüncü istirahət günləri kollektiv müqaviləyə və ya əmək intizamı qaydalarına əsasən müəyyən olunur. Dördgünlük, beşgünlük və altıgünlük iş həftələrində iş günündən əlavə iş müddəti ayda 12 saatdan çox, iş vaxtının məcmu uçotu müəyyən edilən hallarda isə ildə 120 saatdan çox olmamalıdır.

Qeyd edək ki, iş günlərinin sayının azaldılması bir neçə ildir ki, müzakirə edilir, müxtəlif ölkələr özlərinə uyğun qərarlar verir. Xüsusən pandemiya dövründə iş həftəsinin qısaldılması zəruri hesab edilirdi və Almaniya hökuməti belə bir qərar vermişdi. Şimal qonşumuz Rusiyada da dördgünlük iş həftəsinə keçid məsələsi Dumada dəfələrlə müzakirə edilib. Qazaxıstanın artıq belə bir addım atmağa yaxşı yanaşan olması, ölkəmiz üçün də müsbət presedent sayıla bilərmi?

**İqtisadçı Pərviz Heydərov bildirib ki, 4 günlük iş həftəsi sistemi müxtəlif ölkələrdə tətbiq edilə, təcrübədən keçirilə bilər, lakin ölkə iqtisadiyyatı buna tam hazır olmalıdır. Deyilənlər təkcə Azərbaycan üçün deyil, bütün ölkələr üçün keçərlidir:** "Bu sistemin tətbiqi iqtisadiyyatın inkişaf səviyyəsindən asılıdır. Əgər söhbət sırf Azərbaycandan gedirsə, ölkəmizdə bunu ümumi olaraq kompleks şəkildə qanunvericilik yolu ilə etmək mümkün deyil. Amma hər hansı bir sahibkarın, bu və ya digər özəl təsərrüfat strukturunda rəhbərliyin həmin sistemi fərdi qaydada tətbiq etməsi mümkün hesab edilə bilər. Lakin dövlət sektorundan söhbət gedirsə, bunun nəinki indi, yaxın perspektiv üçün də real olacağını düşünmürəm. Çünki bizdə faydalı iş əmsalı hələ ki, tələb olunan səviyyədə deyil. Hətta təcrübələr göstərir ki, bir çox iş yerlərində nəinki 5 günlük, yaxşı olardı ki, 6 günlük iş rejiminə keçilsin. Bütün bunlar ölkə iqtisadiyyatının kompleks şəkildə qeyd olunan dəyişikliyə hazır olmamağından irəli gəlir. Əgər 4 günlük iş həftəsinə keçid etmək istəyiriksə, iqtisadiyyatı inkişaf etdirməli, bütün sahələrdə müasir texnoloji metodların tətbiqinə nail olmalıyıq".

**Eyni sistemin ölkəmizdə tətbiq olunub-olunmamasına dair fikirlərini "Şərq"lə bölüşən Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov bildirdi ki, iş günlərinin azaldılması uzun müddət müzakirə edilən məsələlərdən biridir. Beynəlxalq Əmək Təşkilatı da bu barədə fikirlər bildirir. Lakin bəzi səbəblərdən ölkəmizdə bu sistemin tətbiqi hələ ki mümkün deyil:**

- İş həftəsinin qısaldılması, 4 günlük iş həftəsinə keçid bizim kimi ölkələrdə mümkün deyil. Çünki Azərbaycanda əmək bazarının 70 faizi qeyri-rəsmidir. İşçilərin 70 faizi əmək müqaviləsi ilə işləmir. Ölkəmizdə iş günlərinin azaldılması yalnız dövlət orqanlarında mümkün ola bilər. Amma bu hal cəmiyyətdə diskriminasiyaya səbəb olar. Yəni ki, dövlət orqanlarının əməkdaşları 4 gün işlədiyi halda, digər müəssisə işçiləri həftənin bütün günləri işləyəcək. Bu, düzgün yanaşma olmaz. Ona görə ölkəmizdə belə sistemin tətbiqi hələlik mümkün deyil.

**Məlahət**

# Böyük sınaq

## Türkiyədəki seçkilər beş illik gələcəyi deyil, həm də növbəti yarım əsri müəyyən edəcək dönüş nöqtəsidir

**Türkiyədə 14 mayda keçiriləcək prezident və parlament seçkiləri öncəsi təşkil olunan anketlər beynəlxalq medianın gündəmindədir.**

"Şərq" qəzeti Türkiyənin "milliyet.com.tr" saytına istinadən xəbər verir ki, Türkiyədə seçkilərlə bağlı rəy sorğuları ABŞ-dən Rusiyaya, Fransadan Almaniyaya, İrana qədər dünyanın hər yerində diqqətlə izlənilir. Sayt yazır ki, son bir neçə həftədə aparılan sorğuların nəticələri olduqca diqqətçəkəndir: "Türkiyənin tarixi seçkilərinə cəmi 18 gün qalıb, namizədlər və partiyalar seçki kampaniyalarını gücləndiriblər. Bir çox şəhərlərdə bir-birinin ardınca mitinqlər keçirilir. Beynəlxalq medianın da seçkiyə marağı artmaqdadır.

Nüfuzlu "Əl Cəzirə" nəşri 13 dəqiqəlik reportajında "Türkiyə seçkiləri niyə Ərdoğan üçün böyük bir sınaqdır" sualı ilə çıxış edib. Mətbu orqan 20 ildir ölkəni idarə edən prezidenti nəhəng siyasi xadim kimi xarakterizə edib.

"Forbes" jurnalı "Kamal Kılıçdaroğlunun ələvi bəyannaməsinə qarşı Ərdoğanın taktikası ortaya çıxdı" başlıqlı məqalə yayımlayıb. Yazıda müxalifətin prezidentliyə namizədi Kamal Kılıçdaroğlunun yayımladığı ələvi videosuna istinad edilib. Jurnalın yazdığına görə, bərpa edilən Göy məscidin açılışında çıxış edən Prezident Ərdoğan keçmişdə ələvilər üçün atılan müsbət addımları xatırladıb. Ərdoğan müxalifət blokunun Diyanət İşləri Başçılığının bağlanması təklifini də gündəmə gətirib.

Fransız radiosu "Rfi" öz səsli məqaləsində "seçicilərin Ərdoğandan gözləntiləri nədir?" başlığını seçib. Qeyd olunub ki, mayın 14-nə üç həftədən az qaldığı üçün seçki gərginliyi artmaqdadır: "Türkiyədə çox mühüm səsvermə keçiriləcək. Radio seçki qutusundan hansı nəticənin çıxacağının hələ məlum olmadığını, 85 milyon türkün öz iradəsi ilə prezidenti seçəcəyini bildirib".



Beynəlxalq media Ərdoğanla Kamal Kılıçdaroğlu arasında keçəcək yarışı diqqətlə izləyir

Almaniyanın "Frankfurter Rundşau" qəzeti son rəy sorğularının namizədlər arasında gərgin yarışın keçəcəyinə dəlalət etdiyini yazıb. Nəşr vurğulayıb ki, anketlərdə tərəflərin səs faizlərinin bir-birinə yaxın olması seçicilərin hələ konkret qərar vermədiklərini göstərir.

Rusiyanın "RİA" xəbər agentliyi isə Türkiyədəki anketlərin prezident seçkilərinin ikinci turuna işarə etdiyini bildirib. Rusiyanın digər xəbər agentliyi "İnterFAX" da oxucularına bildirib ki, son sorğuların ikisinə görə, Ərdoğan ikinci turda rəqibi Kılıçdaroğlunu qabaqlayıb. "Abzas" saytı "Ərdoğan Türkiyədəki seçkiləri niyə qazana bilər?" sərlövhəli xəbərlə gündəmə gəlib. Sayt bəzi seçicilərin seçki qutusunda fikirlərini dəyişərək Ərdoğanı dəstəkləyəcəyini qeyd edib. Rusiyalı politoloq Karine Qevorqyan bildirib ki, Ərdoğan ilk turda liderliyi ələ keçirə bilər.

İranın "Tasnim" xəbər agentliyi "Qarşıdan gələn seçkilər Türkiyənin gələcək yarım əsrlik taleyini təyin edəcək" məqaləsini dərc edib. Prezident Ərdoğanın açıqlamalarına yer verən "Tasnim" mayın 14-də keçiriləcək həssas prezident seçkilərinin təkcə Türkiyənin beş illik gələcəyinə aydınlıq gətirməyəcəyini bildirib. Agentlik Ərdoğanın cümləsini sitat gətirib: "Qarşıdan gələn seçkilər ölkəmizin təkcə beş illik gələcəyini deyil, həm də növbəti yarım əsri müəyyən edəcək dönüş nöqtəsidir".

**İsmayıl**

# Fransa XİN başçısı Bakıya niyə gəlir?

## Münasibətlərin normallaşması üçün imkanlar təbii ki, var

**Fransanın xarici işlər naziri Katrin Kolonna aprelin 26-28-də Azərbaycanda və Ermənistanda səfərdə olacaq.**

Bu barədə Fransa Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti məlumat yayıb.

Məlumatda qeyd olunur ki, fransalı diplomat Bakıda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşəcək.



*Paris açıq şəkildə Azərbaycanla təhdid dilində danışmağın qeyri-mümkün olduğunu başa düşməlidir*

**Səfəri "Şərq"ə dəyərləndirən siyasi şərhçi Turab Rzayev vurğulayıb ki, səfərlə Fransa və Azərbaycan arasında yaranmış gərginliyin qarşısını almağa çalışırlar:** "Çünki bu, getdikcə təhlükəli hal almağa başlayıb. Demək olar ki, bu ölkələr arasındakı əlaqələr geriyə dönməz şəkildə zədələnib. Buna görə Azərbaycanda olduğu kimi Fransada da narahatlıq keçirirlər. Ona görə ki, Fransa-Azərbaycan münasibətləri uzun illər hamar səthdə inkişaf edib. Hətta Fransa hökuməti tərəfindən Azərbaycan rəhbərliyinə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dövlət mükafatları verilib. Amma Qarabağ müharibəsindən sonra iki ölkə arasındakı münasibətlər kəskin formada pisləşdi. Biz həmin dövrdə rəsmi Parisə dəfələrlə xəbərdarlıq etdik. Hətta Fransa açıq şəkildə Azərbaycan prezidentinə sanksiyalar tədbiq edəcəyi barədə hədə-qorxu gəldi. Biz isə bunlara boyun əymədik. Müharibədən sonra isə münasibətlərin normallaşması üçün addımlar atılmağa başlandı. Yəni Fransaya göstərdik ki, biz təhdid dili ilə danışılacaq ölkə deyilik. Bundan sonra isə Fransa bölgəyə daha ədalətli yanaşmağa çalışdı. Ən azından Avropa İttifaqı bu şəkildə həyata keçirdi. Brüssel formatı ortaya atıldı və bildirildi ki, Ermənistana 2.6 milyard avro ayrıldığı halda, Azərbaycana da 2 milyard avro ayrılacaq. Yəni hardasa bir barış gözləyərək, məsələyə neytral yanaşmağa çalışdılar".

Analitikin sözlərinə görə, Praqa görüşlərindən 2 gün sonra rəsmi Paris Azərbaycan əleyhinə gözlənilməz şəkildə qəti addımlar atdı:

"Yəni Azərbaycana qarşı parlamentdə qətnamələr qəbul edildi. Fransa Senatı gah Qarabağın müstəqilliyi ilə bağlı sənəd hazırladı, gah da Azərbaycanın neft-qaz ixracatına qarşı sanksiyalarla bağlı çağırış etdi. Bu isə mövcud vəziyyəti daha da pisləşdirdi. Münasibətlərin düzəldilməsi üçün isə imkanlar təbii ki, var. Əlbəttə, Azərbaycan dövləti və cəmiyyəti birbaşa Fransanın səmimiyyətinə etimad etməyəcək. Amma zamanla bunu formalaşdırmaq olar. Düşünürəm ki, rəsmi Paris açıq şəkildə Azərbaycanla təhdid dilində danışmağın qeyri-mümkün olduğunu başa düşməlidir. Digər tərəfdən, Qarabağ məsələsində ən azından neytrallığını qorumalıdır. Biz Fransadan Azərbaycana tərəf olmağını istəmirik. Lakin onun açıq şəkildə Ermənistanı dəstəkləməsi əlaqələrə ciddi zərbə vurur. Təsəvvür edin ki, Paşinyan belə təxribatlar zamanı onun yox, xarici qüvvələrin əmrlərinin icra edildiyini etiraf edir. Bu etirafdan sonra isə Fransa XİN-i açıqlama verdi ki, Azərbaycan Ermənistana "təcavüz" edib, Ermənistan tərəfi də bu "təcavüzün" qarşısını almağa çalışır. Belə açıqlamalar isə əlaqələrin normallaşmasının qarşısını alır. Buna görə də tezliklə münasibətlərin bərpa ediləcəyini düşünmürəm".

**Nihat Müzəffər**





# Qarabağda sülhməramlıların komandanı dəyişdirildi

## Rusiyanın məqsədi üzərindəki basqını və narazılığı mümkün qədər azaltmaqdır

**Rusiya hakimiyyəti Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının komandanı Andrey Volkovu geri çağırmaq qərarına gəlib. Məlumata görə, onu general-polkovnik Aleksandr Lentsov əvəz edib.**

Qeyd olunub ki, Rusiya sülhməramlılarının yeni komandanı general-polkovnikdir və müdafiə naziri Sergey Şoyqunun ən etibarlı adamlarından biridir. Qeyd edək ki, Azərbaycan tərəfi haqlı olaraq Qarabağdakı rus sülhməramlılarından narazılığını ifadə edir, əsaslı iradlarını bildirir. Maraqlıdır ki, erməni tərəfi də rus sülhməramlılarından gileygüzar etməkdədir. Təbii ki, ermənilərin dərdi başqadır. İrəvan hesab edir ki, rus sülhməramlıları "ermənilərin müdafiəsini" layiqli yerinə yetirmir, rəsmi Bakının addımlarına "göz yumur".

**Politoloq Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Rusiya bu tipli addımlarla regiondakı gərgin vəziyyəti yumşaltmağa çalışır. Analitik vurğulayıb ki, uzun müddət davam edən ekofəalların aksiyası, köhnə yoldan yeniyə keçidin təmin edilməsi, sonra nəzarət-buraxılış məntəqəsinin qurulması və s. hadisələr Rusiya üçün böhranlı vəziyyətdir:** "Rus sülhməramlılarının rəhbəri Volkov isə bu böhranlı vəziyyəti idarə etməyi bacarmadı. Volkov mövcud prosesdən baş çıxarmadı. Hansısa formada tərəfləri barışığa, razılığa gətirə bilmədi. Bölgədə ciddi gərginlik vüsət almağa başladı. Həm Azərbaycan, həm də Ermənistan Rusiya sülhməramlı kontingentin fəaliyyətindən açıq-aşkar narazıdır. Bu da Kreml üçün ciddi problemlər yaratdı. İndi Moskva çalışır ki, sülhməramlıların rəhbərini dəyişdirməklə üzərindəki gərginliyi atsın. Rusiya bənzər addımı əvvəl də atıb. Bundan əvvəlki komandan Rüstəm Muradova qarşı Azərbaycan cəmiyyətində çox ciddi nifrət yaranmışdı. Məhz bu antipatiyanı aradan qaldırmaq üçün Muradov Volkovla əvəzləndi. Volkovun kənarlaşdırılması ilə bağlı xəbərlər də eyni senariyə xidmət edir. Məqsəd sülhməramlılar üzərindəki basqını mümkün qədər azaltmaqdır".

**İsmayıl Qocayev**

# "Siyasilər özünü qorumalıdır"

## Hafiz Hacıyev də cangüdən saxlayır



**"Haradasa 20 gün müalicə olunacam. Partiyanın işləri davam edir. Artıq partiya üzvlərinin imzatoplama kampaniyası yekunlaşır. Deyilən vaxtda da təqdim edəcəyik".**

Bu sözləri "Şərq"ə açıqlamasında Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev deyib.

Ölkəmizdə baş verən hadisələrdən danışan H.Hacıyev deputat Fazil Mustafaya qarşı edilən sui-qəsd cəhdi haqqında bunları söyləyib: "Azərbaycanın düşmənləri çoxalıb. Hazırda ölkəmizi istəməyən dövlətlər çalışırlar ki, təxribat törətsinlər. Ona görə də biz siyasilər özümüzü qorumalıyıq. Bütün məsələlərdə ayıq-sayıq olmalıyıq. Düşünürəm ki, burada bizdən çox şey asılıdır. Mən də özümü həmişə istər xarici, istərsə də daxildə olan düşmən qüvvələrindən qoruyuram. Azərbaycanın müstəqilliyini istəməyən qonşu dövlətlər mövcuddur, onlar hər an çalışırlar ki, qarışıqlıq yaratsınlar. Buna imkan verməməliyik. Fazil bəyə də şəfalar diləyirəm. Ləyaqətli deputatlardan biridir. Düşünürəm ki, bu hadisədən sonra "lal" deyil, danışan deputatlarımız özlərini qorumalıdırlar. Cangüdənim var, qorunuram".

**Samirə Ərəblinskaya**

# "MEDİAlab" layihəsi çərçivəsində silsilə təlimlər davam edir



**Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə gənclərin media sahəsində fəal iştirakına şərait yaratmaq, yaradıcı-innovativ potensialını stimullaşdırmaq, xarici təcrübəyə əsaslanan nəzəri biliklərini artırmaq və yerli mediada tətbiqini reallaşdırmaq, bu istiqamətdə təcrübə mübadiləsini həyata keçirmək üçün "MEDİAlab" layihəsi çərçivəsində silsilə təlimlər davam edir.**

Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və 4 ali təhsil müəssisəsinin - Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tərəfdaşlığı ilə həyata keçirilən "MEDİAlab" layihəsi çərçivəsində jurnalistika ixtisasında təhsil alan və jurnalistikaya marağı olan gənclər üçün Psixologiya Elmi-Tədqiqat İnstitutunda psixoloq Elnur Rüstəmov tərəfindən "Emosional zəka" mövzusunda təlim təşkil olunub.

Təlim müddətində emosional zəka anlayışı, onun yaranma tarixi, özünü dərk etmə, İQ VƏ EQ arasında əlaqə kimi mövzulara toxunulub. Təlim interaktiv şəkildə və qarşılıqlı fikir mübadiləsi əsasında aparılıb, gənclərin ünvanladığı suallar təlimçi tərəfindən cavablandırılıb.



# Nazir hədəfləri açıqlayıb

## Su qıtlığına davamlı bitkilərin yetişdirilməsi istiqamətində araşdırmalar genişləndiriləcək

**"Azərbaycan sürətli iqtisadi inkişafına görə regionun lider ölkəsidir. Əsas hədəfimiz malik olduğumuz təbii ehtiyatlardan istifadə etməklə iqtisadiyyatı şaxələndirməkdir". Bu sözləri kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib.**

Nazir qeyd edib ki, ilk növbədə kənd təsərrüfatının inkişafına diqqət yetirilir: "Biz aqro-ərzaq sistemlərimizin davamlı transformasiyasına nail olmaq üçün böyük səylər göstəririk. Yaşıl bərpa, rəqəmsallaşma və innovativ həllər davamlı milli aqro-ərzaq sisteminin qurulması üçün gündəliyimizdəki əsas prinsiplərdir.

*"Sağlamlığımız və qidamız üçün sağlam ekosistemlərdən asılıyıq"*

Heyvanların yetişdirilməsi, o cümlədən sağlamlığın qorunması gündəmimizdə prioritet olaraq qalır. Dövlət damazlıq məqsədləri üçün xaricdən gətirilən heyvanların ümumi həcminin 60 faizini subsidiya edir. Bundan əlavə, Süni Mayalanma Mərkəzimizdə bu yaxınlarda başlayan embrion transferi layihəsi heyvandarlığın artırılması məqsədi daşıyırdı. Heyvanlar yer üzündə həyatın və insanların qidalanmasının əsasını təşkil edir. Sağlamlığımız və qidamız üçün sağlam ekosistemlərdən asılıyıq". Nazir bildirib ki, iqlim dəyişikliklərinin və biomüxtəlifliyin zədələnməsinin səbəbinin daha tez-tez ortaya çıxan yoluxucu xəstəliklər olduğuna dair sübutlar var: "Heyvanlar qlobal biomüxtəlifliyimizin bir hissəsidir və əsas məqsəd onların rifahı ilə yanaşı növlərini də qorumaqdır. Kənd təsərrüfatının inkişafı siyasətimizdə heyvandarlıq və sağlamlığın prioritet mövzu olduğunu nəzərə almaq lazımdır.

Heyvanların peyvəndlənməsindən bəhs edən nazir illik hazırlanan tədbirlər planına uyğun olaraq ölkədə zoonoz xəstəliklərin qarşısının alınması və onların sağlamlığının qorunması məqsədilə heyvanların peyvənd olunduğunu qeyd edib: "Təbii ki, düzgün qurulmuş baytarlıq xidmətləri olmadan heyvanların rifahına nail olmaq mümkün deyil. Bu baxımdan, hökumətin son islahatına əsasən, Azərbaycanda baytarlıq xidmətləri özəlləşdirilib və bu proses özəl müqavilələr əsasında təşkil olunub. Bundan əlavə, dövlət dəstəyi sərmayələrimizin əsas hissəsi fermerləri müasir və innovativ əkinçilik texnologiyalarından istifadə etməyə həvəsləndirməyə yönəldilir".

**Su qıtlığının həlli ilə bağlı əsas məqsədləri açıqlayan M.Məmmədov bir neçə gün əvvəl elmi-tədqiqat institutlarında olduğunu və mütəxəssislərlə görüşdüyünü deyib:** "Məqsədimiz kənd təsərrüfatının iqtisadiyyata qatqısını artırmaqdır və bunun üçün rəqəmsal texnologiyalardan istifadə ediləcək. Fermerlərin və ümumilikdə regionların inkişafına nail olmaq üçün komandamızla əlimizdən gəldiyi qədəri ilə bu yolda çalışacağıq. Bir neçə gün bundan əvvəl elmi tədqiqat institutlarında oldum. Əsas tapşırığım o oldu ki, su qıtlığına davamlı bitkilərin yetişdirilməsi istiqamətində araşdırmalar genişləndirilsin. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə birlikdə su qıtlığı ilə bağlı komitə yaradılıb. O çərçivədə fəaliyyətimizi davam etdirəcəyik".

**Şəymən**

# Media sahəsində səliqə-səhman yaranacaq

## İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklər sui-istifadə hallarına yol verilməsinin qarşısını alacaq

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunu imzalayıb.**



*"KİV və cəmiyyət münasibətlərində məsuliyyət yükü artacaq"*

Dəyişikliyə əsasən, media azadlığından və jurnalist hüququndan sui-istifadə etməyə görə cərimələr müəyyənləşib. Media subyektinin redaksiyası (məsul redaktoru) və jurnalistlər tərəfindən media sahəsində fəaliyyət azadlığından və jurnalist hüququndan sui-istifadə etməyə, yəni açıqlanması qanunla qadağan edilən informasiyanı yaymağa və ya informasiya mənbəyini qanunla yol verilməyən hallarda açıqlamağa görə fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə ediləcəklər.

Eyni zamanda jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edilməsinə görə üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə ediləcəklər. Qanunla müəyyənləşdirilmiş hallardan başqa, media subyektləri və jurnalistlərin informasiya almaq hüququnun məhdudlaşdırılmasına və ya onlara informasiya verilməsindən imtina edilməsinə, yaxud qanunla müəyyən edilmiş müddətdə onların sorğusuna cavab verilməməsinə görə də üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə ediləcəklər.

**Sözügedən dəyişikliyi "Şərq"ə şərh edən Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərlinin sözlərinə görə, media fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklələrin Prezident İlham Əliyev tərəfindən təsdiqlənməsi mühüm əhəmiyyət kəsb edir:** "Bu dəyişikliklər media fəaliyyətinin tənzimlənməsi, jurnalistlərin işinin asanlaşdırılması və hüquqi çərçivələrinin cızılması ilə bağlı son 4 ildə aparılan islahatların məntiqi ardıcıllığıdır. Bu dəyişikliklər bir növ jurnalistlərin hüquqi səlahiyyətlərinin tanınması deməkdir. Əslində biz jurnalistlərin Peşə Kodeksinə və media haqqında qanunvericiliyə baxsaq, orada təkzib və düzəlişlərin verilməsi, təqsirsizlik prezumpsiyasının qorunması, jurnalist fəaliyyətinə mane olmaq hallarının aradan qaldırılması və s. kimi hallarla bağlı müddəaların əks olunduğunu görə bilərik. Sadəcə, hüquqi məsuliyyətdə qeyri-müəyyənlik vardı. Sözügedən qaydaları pozan şəxsləri konkret hansı cəzalar gözlədiyi bəlli deyildi. Ona görə də biz bu və ya digər hallar üzrə qayda pozuntularının tez-tez şahidi oluruq. Bunun başlıca səbəblərindən biri həmin hallar və qayda pozuntuları üzrə konkret cərimə mexanizmlərinin və sanksiyaların olmamasıdır. Sanksiyaların, cərimələrin, cəzalandırma mexanizminin olmaması, yaxud da simvolik xarakter daşıması sadaladığımız halları intensivləşdirir. Bu baxımdan İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikləri dəstəkləyirik. Hesab edirik ki, bu dəyişikliklər və əlavələr kütləvi informasiya vasitələrində qeyd edilən hallar üzrə xətaların, eyni zamanda jurnalistlərin peşə fəaliyyətinə mane olma hallarının aradan qaldırılması üçün yardım göstərmiş olacaq. Bu sahədə səliqə-səhman yaradacaq, sui-istifadə hallarına yol verilməsinin qarşısını alacaq, KİV və cəmiyyət münasibətlərində məsuliyyət yükünü artıracaq".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği:

# Heydər Əliyevin təhsil strategiyası və reallıqlar

**Çağdaş dünyada, sosial-iqtisadi, mədəni-maarif sistemlərinin bütün spektrlərini əhatə edən genişmiqyaslı qloballaşma və modernizasiya prosesinə uyğun, müxtəlif dövlətlər arasında yeni inteqrativ münasibətlərin reallaşdırılması intensiv surətdə davam etdirilir. Davam edən dünyamiqyaslı bu prosesin mühüm istiqamətləri kimi elm, təhsil və mədəniyyətin inkişafı naminə həyata keçirilən islahatlar Azərbaycan sosial mühitinin də vacib tələbi kimi özünü göstərir. Azərbaycan sosial mühitinin mühüm tərkib hissələrindən biri olan təhsil sistemində baş verən islahatlar, onun ümumdünya praktikasına inteqrasiyası dünya miqyasında təzahür edən qloballaşma tendensiyasına uyğun olmaqla müasir təhsilin prioritet istiqamətlərindən doğan fasiləsiz modernləşdirmə aspektlərinin zəruriliyini özündə ehtiva edir.**

Çünki qloballaşma müasir cəmiyyətin inkişaf dinamikasına stimul verən çoxkomponentli, çoxparametrli və mürəkkəb olan təhsil prosesinin səmərəli qurulması, hər bir dövlətin intellektual potensialını müəyyənləşdirməklə, onun dayanıqlığını təmin edən, inkişafı şərtləndirən vacib amillərdəndir. Elə bu səbəbdəndir ki, "Təhsil millətin gələcəyidir..." - deyən Ulu Öndər Heydər Əliyev özünəməxsus uzaqgörənliklə çağdaş təhsilin qarşısında duran ümdə vəzifələri; ümumi dəyərlər sistemində milli-bəşəri dəyərlərə sahib olaraq demokratik təsisatların mənimsədilməsi və inkişafında iştirak etmək bacarığına malik, müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq strategiyasının həyata keçirilməsi konsepsiyasını müəyyənləşdirib. Məhz Heydər Əliyevin təhsil strategiyasının düzgün dərkinin nəticəsidir ki, son illər Azərbaycan təhsilinin dünya təhsil məkanına birbaşa qoşulması prosesi müvəffəqiyyətlə davam etdirilir və cəmiyyətin inkişafına xidmət göstərən konseptual istiqamətlər müəyyən edilərək uğurlu nəticələr qazanılır. Bu istiqamətlərə müvafiq ölkəmizdə bütün elm və təhsil sahələri üzrə inkişaf strategiyası hazırlanaraq, gənc nəslin elmlərə sahib olması və ölkənin intellektual səviyyəsinin yüksəldilməsi məramına Heydər Əliyev konsepsiyasına rəğmən xüsusi önəm verilməsi təsadüfi deyil. Elmi-texniki nailiyyətlərin təkcə iqtisadi istehsal sahələrinə deyil, təhsildə, təlim-tədris prosesində geniş yer tutması, cəmiyyətdə yüksək intellektuallığın bərqərar olması, milli və ümumbəşəri dəyərlərin vətəndaş hazırlığında rolunun dəyərləndirilməsi, təhsil işinin məzmunun, təlim-tərbiyə prinsipləri, metod və vasitələrinin təkmilləşdirilməsi yüksək intellekt və təfəkkür sahibi Ulu Öndər Heydər Əliyevin uğurlu təhsil siyasətinin nəticəsi kimi qiymətləndirilməlidir. Keçən əsrin 70-ci illərindən ölkədə başlayan ictimai-siyasi dəyişikliklər milli mənlik şüurunun formalaşması, milli təhsilin inkişafı, sosial-ictimai mühitdə özünü göstərən deformasiyaların aradan qaldırılması, Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə özünü reallaşdırmağa başladı. Milli, müstəqil dövlətçilik naminə daima çırpınan ürək sahibi Heydər Əliyev milli şüur, əqidə, mənəviyyat kimi müqəddəs hisslərin insanlarda formalaşmasının təhsil siyasətinin düzgün qurulmasında görürdü. Təhsili dövlətçiliyin müqəddəm şərti hesab edən dahi şəxsiyyət bütöv həyatı və fəaliyyəti ərzində həmin amala sadiq olub. İnsanlarda intellektual səviyyənin yüksəlməsini daima diqqət mərkəzində saxlayıb, bu işdə xalqımıza məxsus tarixən formalaşdırılan, milli təhsil ənənələrinə istinad olunmasını da vacib şərt sayıb.

Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıtdıqda da milli müstəqillik qazanmış ölkəmizdə yeni quruculuq işlərinə rəğmən cəmiyyətdə özünü göstərən neqativ hallara, mənəviyyatsizliyə qarşı daima mübarizə aparır, insanları milli-mənəvi dəyərlərimizə ehtiramla yanaşmağa çağıraraq, prinsipiallığı, mənəvi dəyərlərə sadiqliyi, milli şüuru, əqidəsi, ləyaqəti, şəxsi xarakter bütövlüyü, vətənpərvərliyi, həyata nikbin baxışı ilə, vəzifəli şəxslərə, bütövlükdə xalqına nümunə göstərirdi.

Heydər Əliyevin mənəvi keyfiyyətlərinin məntiqinin həyatiliyini biz Azərbaycanda təhsil ənənələrinə ehtiramında, onu təhlil edərək müsbət cəhətləri üzə çıxarıb, bugünkü təhsil siyasətində tətbiq etmək bacarığında aydın görürük. Heydər Əliyev hələ XIX əsrdən başlayaraq XX əsrin əvvəllərində Azərbaycanda milli təhsil uğrunda mübarizənin mahiyyətini, inkişaf tendensiyalarını aydınlaşdıraraq 1918-ci ildə yaranmış ilk Xalq Cümhuriyyətinin indiki təhsil sisteminin inkişafında rolunu yüksək qiymətləndirir. "Xalq Cümhuriyyətinin böyük xidməti ondan ibarətdir ki, Azərbaycanda ilk ali təhsil müəssisəsi yaradıbdır. Ancaq bu ali təhsil müəssisəsinin yaranması ondan əvvəl Azərbaycanda gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsi olub. Azərbaycanda indi mövcud olan təhsil sistemi 1920-ci ildən sonrakı dövrdə yaranıb". Diqqəti cəlb edən cəhətlərindən biri, göründüyü kimi, Heydər Əliyev haqlı olaraq keçmiş sovet təhsil sistemini kənara atılmalı, yararsız, lazımsız, nəzəriyyələr, prinsiplər sistemi kimi qəbul etməyib, onu bugünkü təhsilimizin mühüm tərkib hissəsi hesab edib və yüksək qiymətləndirib. "Mən açıq demək istəyirəm, bu təhsil sistemi (sovet - I.I.) çox yaxşı bir sistemdir. ...Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz onda Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərdə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq." Lakin 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra ölkənin ictimai-sosial, iqtisadi həyatında zamanın tələbinə uyğun yenidənqurma işlərinin aparılması pərdəsi altında hakimiyyətdə təmsil olunanların səriştəsizliyi üzündən tarixən xalqımız tərəfindən formalaşdırılımış mənəvi dəyərləri kənara ataraq bütün sahələrdə olduğu kimi təhsil sistemində də üzdəniraq "yenidənqurma" işlərinə başlandı. Ulu Öndər belə yanaşmaları rədd edərək, bu kimi zərərli tendensiyalarla razılaşmağın mümkünsüzlüyünü bildirdi. Bu mənada 1992-ci ildə qəbul edilmiş "Təhsil haqqında" qanunu tənqidi düşüncələrini belə ifadə etdi: "...Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir şey yaradasan... Təəssüflər olsun ki, Azərbaycanda bu mühüm sahəyə 1992-ci ildə qəbul olunmuş təhsil qanunu ilə böyük zərbə vurulub. Təəssüf edirəm ki, təhsil sahəsində çalışan məsul şəxslər və təhsil işçiləri Azərbaycanın təhsil sisteminə vurulan bu zərbəni indiyədək təhlil etməyiblər, araşdırmayıblar və buna lazımi qiymət verməyiblər". Elə bu səbəbdən də Heydər Əliyev qətiyyətlə təhsil islahatlarını günün tələbləri səviyyəsində müvəffəqiyyətlə aparmaq üçün yeni təhsil qanununun qəbul edilməsi vacibliyini irəli sürür. Qəbul olunacaq təhsil qanununun elmi-pedaqoji əsasları ilə əlaqədar strateji düşüncələrini konseptual formada ümumiləşdirməsi əlçatmaz siyasi xadim Heydər Əliyevin yüksək pedaqoji təfəkkürə malik şəxsiyyət olduğunu sübut edir: "Təhsil sahəsində qəbul edəcəyimiz qanunda və islahat proqramında da məsələyə çox dəqiq, həssas münasibət göstərməliyik. Mənim fikrimcə, bu ondan ibarət olmalıdır ki, Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanılmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir. Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemində tətbiq edilməlidir". Məhz Heydər Əliyev tərəfindən əsası qoyulan təhsil strategiyası; milli ənənələrə, ümumbəşəri dəyərlərə istinadən dünya təhsil standartlarına cavab verən, həm məzmun, həm də formaca daha mükəmməl təhsil sisteminin yaradılması strategiyası öz əksini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu il 15 iyun tarixdə imzaladığı "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı"nda öz əksini tapıb.

Heydər Əliyev təfəkkürü və düşüncəsinin nəticəsi kimi gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi kimi konseptual problemlərin həlli və reallaşdırılması kontekstində elm və təhsili diqqət mərkəzinə çəkməsi təsadüfi deyil. Bu məram Heydər Əliyevin dövlətiçiliyimizin inkişaf edib möhkəmləndirilməsi, dünya dövlətləri içində özünəməxsus yer və mövqe qazanması üçün vacib şərt hesab etməsi ilə bağlıdır. Çünki ölkədə yeni təfəkkürlü insan, vətəndaş və mütəxəssis formalaşdırılmasının məqsədyönlü həyata keçirilməsi təhsil quruculuğunun müasir dövrün təhsil strategiyasına uyğun aparılmasından çox asılıdır. Ölkəmizin çoxəsrlik tarixini, çoxşaxəli iqtisadiyyatının inkişaf problemlərini Azərbaycan xalqının maddi və mənəvi həyatının, onun dilinin, ədəbiyyatının və ictimai fikir tarixinin mühüm aspektlərinin dərindən bilicisi olan Heydər Əliyev ölkənin sosial-siyasi, iqtisadi vəziyyətinin yüksəldilməsində əsas kriteriya kimi təhsilin aktuallığını filosoflara məxsus müdrikliklə söyləyir. Çünki cəmiyyətin inkişafının bütün sahələrində yeniliklərin aşkarlanıb mənimsənilməsi, ölkədə elm və təhsilin səviyyəsi ilə bağlıdır. Həm də yüksək elmi təfəkkürə malik insanlar demokratik dövlət quruculuğunun mahiyyətini daha aydın dərk etmək imkanına malik olurlar. Elə bu səbəbdən də təhsildə yüksək göstəricilərə nail olmaq üçün elm və təhsil sistemində innovasiya və texnologiyalardan səmərəli istifadə etməyi tövsiyə edən yüksək əqidə və idrak sahibi Heydər Əliyev yazırdı: "İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlat çox aqıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir..., dəb naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır." Buna görə də təhsil bütün ictimayyətin və xüsusən də ziyalıların, pedaqoji peşə sahiblərinin fəaliyyətinin prioriteti, dövlətçiliyimizin müdafiəsi üçün də əsas sayır; "Biz bütün qüvvəmizi toplasaq, ziyalılardan, din xadimlərindən istifadə etsək, onlar bu işi mütəşəkkil apara bilsələr, hərbi hissələrdə lazımi iş görərək, tərbiyə, əxlaq, mənəviyyət məsələlərini döyüşçülərə aşılaya bilsələr, onların mənəviyyatını, iradəsini möhkəmləndirə bilsələr, bu bizim həm siyasi, həm də ideoloji işimiz olacaqdır. Lakin bu iş nəzəri şəkildə deyil, mütəşəkkil aparılmalıdır"- deyə bu işdə özü kimi inamlı, cəsarətli, ləyaqətli və dözümlü olmağı tövsiyə edir: "Ancaq eyni zamanda belə düşünürəm ki, xalqımız dözümlü olduğu kimi ziyalılarımız da, alimlərimiz də ən dözümlülərdəndir, ən mətanətlilərdəndir. Mən bütün bu çətinlikləri bilərək ziyalılarımıza, müəllimlərimizə müraciət edirəm. Gənclərimizin təlim-tərbiyəsi işinə, təhsil-tədris işinə diqqətinizi azaltmayın... Mən əminəm ki, müəllimlərimizin, ziyalılarımızın, alimlərimizin əksəriyyəti belə düşünür, belə yaşayır və bütün bu çətinliklərə baxmayaraq, öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yetirəcəklər" - tövsiyələri ilə xalqına öz inamını ifadə edən Ulu Öndər bu strateji konsepsiyanın həyata keçirilməsini təhsil müəssisələrinin qarşısında qoyulan təxirəsalınmaz vəzifə hesab edir: "Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".

Göründüyü kimi, Heydər Əliyev fenomeninin apardığı məqsədyönlü təhsil siyasətinin mühüm tərkib hissələrindən biri də müstəqil dövlətçiliyimizi möhkəmləndirəcək, inkişaf etdirəcək, qoruyub saxlaya biləcək yeni insan tərbiyəsidir. Heydər Əliyev yazır: "Heç kəs yerində donub dura bilməz. Kim ki, donur, o artıq cəmiyyət üçün o qədər də lazım deyildir. Hər kəs inkişafda olmalıdır. Hesab edirəm, elə nəsil yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xətalara düşməsinə imkan verməsinlər. Onlar doğru yolla, milli hissiyyatlar yolu ilə getməlidirlər". Dövlətin milli-ideoloji konsepsiyasını işləyib hazırlayan Ulu Öndər milli təfəkkür tərzinə malik yeni insanın formalaşmasında milli tərbiyəyə daha çox üstünlük verir. Çünki Heydər Əliyev mənəviyyatı xalqın, millətin varlığı hesab edir. Bunun məzmununa vətənpərvərliyi, milli mənlik şüurunu, ləyaqəti və xalqın dilinə, dininə, adət-ənənələrinə, ədəbiyyatına, tarixinə ehtiram və s. keyfiyyətləri daxil edir.

Məhz bu kimi keyfiyyətlərin gənc nəslə aşılanması Heydər Əliyevin milli tərbiyə konsepsiyasının əsasını təşkil edir. Və bunun üçün xalqımız tərəfindən yaradılmış, nəsildən-nəslə ötürərək, qorunub saxlanılan milli-mənəvi dəyərləri əsas vasitə hesab edir. Çünki bir xalqın milli özünüdərki üçün onun mənəvi dəyərləri böyük dəyişdirici qüvvəyə malikdir. Elə bu səbəbdən idi ki, milli-mənəvi dəyərləri özündə təcəssüm etdirərək, milli dövlətçiliyimizin möhkəm təməlini qoyub, onu yüksək zirvəyə qaldıran, özü də xalqımızın mənəvi dəyərlərinə çevrilmiş Heydər Əliyev 13 avqust 2001-ci il tarixində milli-mənəvi dəyərlərin qorunması ilə bağlı bəyanatda deyir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli dəyərləri var. Biz öz milli-mənəvi və dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir... Biz öz mənəvi dəyərlərimizi bütün istiqamətlərdə qorumuşuq, saxlamışıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu milli, mənəvi əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". Bununla milli şüuru, zəngin mənəviyyatı ilə ümumbəşərliyi özündə ehtiva edərək dünya miqyasında millətini ləyaqətlə təmsil edib onu tanıtmış Heydər Əliyev mənəvi dəyərlərimizə ehtiramını bildirməklə vətən balalarının tərbiyəsinin bu metodologiya əsasında qurulmasını pedaqoji ictimaiyyət qarşısında təxirəsalınmaz bir vəzifə kimi qoyur. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - deyən Böyük Öndərimiz millətinə məxsusluğunu onun zəngin mənəvi dəyərlərini özündə əks etdirən müdrik bir filosof kimi xalqına tükənməz ehtiramını iftixar hissi ilə söyləyərkən, millətinin mənəvi dəyərlərinin digər millətdən fərqini, özünəməxsusluğunu diqqətə çatdırır. Həm də Ulu Öndər inkişafımızın müasir mərhələsində Avroatlantik məkana qovuşma prosesində, Avropadan dəyərlənməyi, Avropa ailəsinin üzvü kimi qarşıda duran vəzifələrdən danışarkən, ölkəmizin hər bir üzvünün, uşaqdan böyüyə qədər, milli mənsubiyyətini, şüurunu, mənliyini, ailəyə, torpağa bağlılığını vicdan, borc və ləyaqətini itirməmək şərti ilə inteqrasiyanın vacibliyini irəli sürür: "Mən ölkəni dünyəvi, amma öz mili köklərinə bağlı olan bir dövlət kimi görmək istəyirəm. Hər bir ölkənin öz xüsusiyyətləri var. Mən öz köklərimizlə fəxr edirəm".



Bütün ömrünü vətəni və millətinin tərəqqisinə həsr etmiş Heydər Əliyev özünün saf mənəviyyat dəryasının nemətlərini, xalqının rifahını, mənəvi və fiziki sağlamlığını təmin etmək üçün əsirgəməyib.

Xalqımızın böyük oğlu Heydər Əliyevin milli-mənəvi dəyərlər ruhunda tərbiyə konsepsiyasında aparıcı keyfiyyətlərindən biri vətənpərvərlikdir. "Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır". Ana dilinə məhəbbət hissinin aşılanmasını isə bunun mühüm komponenti hesab edən Heydər Əliyev xalqın inkişaf edib formalaşmasında, varlığını sübut edib, digər millətlər içərisində özünə mövqe qazanmasında dilin rolunu qiymətləndirməklə, ona böyük siyasi əhəmiyyət verir. Həm də dili mənəvi dəyərlərimizin yeganə daşıyıcısı hesab edir. Çünki hər bir xalqın mənəvi dəyərlərini yaşadan, onu nəsildən nəslə ötürən dildir. Dil müstəqil Azərbaycanın milli sərvətidir. Onu qoruyub inkişaf etdirmək hər bir adi vətəndaşın, siyasətçinin, alimin, müəllimin vətənə, millətə olan məhəbbətini-vətənpərvərliyini ifadə edir. Məhz Dahi Öndərin özü bu müqəddəs hissin daşıyıcısı və nümunəsidir. Onun zəngin təfəkküründən süzülüb gələn aşağıdakı düşüncələri bunu sübut edir: "Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim - onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət göstərir". Hər bir azərbaycanlı yaşadığı yerdən asılı olmayaraq dilinə münasibəti də dəyişməz qalmalı, ona daima ehtiramla yanaşmalıdır: "Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daima doğma Azərbaycanla bir vurmalıdır". Müəyyən coğrafi məkan və zaman daxilində Heydər Əliyev Azərbaycan xalqının yaratdığı dili müxtəlif nöqteyi-nəzərlərə qarşı təkzibolunmaz məntiqi düşüncə tərzi ilə müqavimət göstərərək tarixən formalaşmış millətinin dilini də onun öz adı ilə adlandırılmasında əsl əməli vətənpərvərlik nümunəsi göstərib. Mərhum Prezidentimiz Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" barədə tarixi fərmanı da məhz "qəlbi daima Azərbaycanla bir vuran" şəxsiyyət olduğunu bir daha sübut edir.

İslami dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsi hesab edən Heydər Əliyevin Azərbaycanda milli-dünyəvi dövlət quruculuğunun banisi olmaqla, islamın əxlaqi-fəlsəfi mahiyyətini dərindən dərk edərək yeni insan tərbiyəsində bu pak mənəviyyat çeşməsindən bəhrələnməyi tövsiyə etməsi təsadüfi deyil. Bu, bir tərəfdən onun dini dəyərlərə olan ehtiramını ifadə edir, digər tərəfdən böyük dəyişdirici, tərbiyəedici imkanlarla zənginliyini söyləyir və deyir ki, "Qurani-Şərif"in bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, səadətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir. Heydər Əliyevə görə, "İslam dini əsrlər böyu bizim mənəviyyatımızın əsasını təşkil edib, müsəlmanların dünyada layiqli yer tutmasını təmin edib... "Qurani-Kərim"in bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir".

Milli-mənəvi dəyərlər ruhunda tərbiyəyə üstünlük verərək gəncliyimizin gələcəyinə nikbin baxış nümayiş etdirən Heydər Əliyev onlarla fəxr etdiyini söyləyir: "Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var, fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınınzı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz ,böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz". Belə möhtəşəm "böyük binanı quran" və bu istəyə sadiq olan vətən balalarının tərbiyəsində mənəvi dəyərlərə istinadı vacib sayaraq: "Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər" - deyərək öz ülvi hisslərini bildirən Heydər Əliyev onlara aşılanacaq mənəvi keyfiyyətlərdən geniş bəhs edir. Çünki ölkənin, millətin gələcəyi apardığımız tərbiyə işindən asılıdır. "Uşaqlar bizim gələcəyimizdir. Gənclərimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır". "Milli birlik", "Mənəvi həmrəylik", "Vətəndaşlıq həmrəyliyi", "Milli mənlik şüuru" kimi keyfiyyətlərin vətən balalarına aşılanmasının vacibliyi daima Heydər Əliyev istəyi və idealı olmuşdur. Daha doğrusu "Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən - bugünkü və gələcək təcavüzlərdən qorumaq, cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır".

"Ədaləti", "nəfsi", əxlaqi saflığın, mənəvi təmizliyin aparıcı göstəricisi hesab edən millət tərbiyəçisi: "Kiməsə qarşı ədalətsizlik edilirsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır" - deyir. Ədalətli hökmdar kimi ölkədə ədalətin bərqərar olmasını dövlətçiliyimizin möhkəm təməl üzərində qurulmasının stimulu hesab edir. Azərbaycan xalqına məxsus qəhrəmanlığı, cəsurluğu, dəyanətliliyi mənəvi dəyər kimi vətən balalarında tərbiyə etməyin vacibliyini göstərən Heydər Əliyev xalqın tarixi, ənənələrinə sadiqliyi, özünün başqa xalqlar içərisində tanınması üçün əsas amil sayır. Çünki hər bir xalqın dövlətçiliyinin möhkəmliyi onun qəhrəman, döyüşkən, yenilməz, dəyanətli, saf iradəli, əxlaqlı vətəndaşları ilə tanınır. "Azərbaycan xalqı dünyaya nümayiş etdirdi ki, o yenilməzdir, qəhrəmandır, ona nə qədər güclü təcavüz, təzyiq olsa da, onun iradəsini sındırmaq mümkün deyil".

Ulu Öndər Heydər Əliyevin təhsil strategiyasından irəli gələn vəzifələrin mahiyyətinə müxtəlif istiqamətlərdə təxirəsalınmadan həyata keçirilməsi onun layiqli və ləyaqətli davamçısı Respublika Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının inkişaf tempinə uyğun hər bir şəxsə hərtərəfli bilik və bacarıq verən təhsil sisteminin elmi əsasları, infrastrukturu, daha da təkmilləşdirilib, yeniləşdirilir. Bu da təhsilin yüksək səviyyədə qurulması üçün əsas verir. Elə bu səbəbdəndir ki, ölkə Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü, davamlı dövlət siyasətinin nəticəsi olaraq təhsil sahəsində də islahatlar davam etdirilərək vahid konsepsiya əsasında konkret dövlət proqramı hazırlandı. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" təsdiq edildi. Təhsilin normativ hüquqi bazası möhkəmləndirildi, infrastrukturun yeni tələblərə uyğun qurulması sahəsində əməli işlər görüldü və bu, ardıcıl olaraq davam etdirilir. Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolunu əsas götürməklə, insanlara yeni texnologiyaları çevik mənimsətmək, əmək bazarında layiqli yer tutmaq, ömür boyu təhsil prosesinə qoşulmaq, insanlarda yeni tələblərə uyğun bilik, bacarıq və vərdişlər formalaşdırmaq məqsədinin reallaşdırılması naminə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edildi. Bu dövlət sənədində beş istiqaməti; şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasını, innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən nüfuzlu təhsil verənlərin formalaşdırılmasını, təhsildə yeni idarəetmə sisteminin formalaşdırılmasını, müasir tələblərə cavab verən infrastrukturun, yeni maliyələşdirmə mexanizminin yaradılması kimi qlobal problemləri özündə birləşdirir.

Heydər Əliyevin təhsil siyasətinin həyata keçirilməsinin reallaşdırılmasına yönələn bu strategiyada, görüləcək işlərlə əlaqədar gələcək hədəflər də müəyyənləşdirilir. Bütün bunlar Heydər Əliyev siyasətinin təhsildə uğurlu davamı kimi qiymətləndirilməlidir.

**İramin İsayev,**
**Professor, ADPU-nun Ümumi pedaqogika kafedrasının müdiri**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Girov" filmi məhv edilməli, arxivdən də silinməlidir"

## Seyran Səxavət: "And olsun Allaha ki, bu, xalqa, dövlətə xəyanətdir!"







***"Əgər Mədəniyyət Nazirliyi, Dövlət Film Fondu filmə qahmar çıxsalar, şəxsən mən "topla-tüfənglə" meydana çıxmağa hazıram. Heç bir qorxum da yoxdur"***

**"Dağlıq Qarabağ uğrunda müharibə zamanı sərhədyanı zonada yaşayan qonşular bir gecənin içində düşmənə çevrilir. Azərbaycanlı Kərim ermənilər tərəfindən girov götürülür. Kənd əhalisinin qərarına əsasən onu dəyişmək üçün həyat yoldaşının (Gülər Nəbiyeva) sərəncamına bir erməni (Qurban İsmayılov) girov verilir, lakin zaman keçdikcə Kərimin həyat yoldaşı "düşmən"in də insani cəhətlərə malik olduğunu və bənzər vəziyyətdə olmasını aşkar edir".**

Bu tanıtım 2005-ci il istehsalı olan "Girov" filmi haqqında "Vikipedia"da yer alıb. Filmin rejissoru mərhum Eldar Quliyev, ssenari müəllifləri Eldar Quliyev və Natiq Rəsulzadədir. Filmin gündəmə gəlməsi, müzakirələrə yol açması və bir çoxumuzun filmi izləməsinin səbəbkarı olduğu üçün hörmətli yazıçımız Şərif Ağ - Şərif Ağayara təşəkkür etməliyik. Çünki. Etiraf edək, çoxumuz filmdən xəbərsizdik, Şərif bəy onu "yıxıb sürüyənədək", həmçinin istedadlı həmkarımız Ləman Ələşrəfqızı da eynilə sərt statusla çıxış edənədək.

**Statusu təqdim edək, sonra rəyə keçək:** "Dünən gecə oturub "Girov" filminə baxıram. Əslində belə bir filmin olduğunu bilmirdim. Sərif AG ötən gün LAF TV-nin efirində bu film haqqında o qədər danışdı ki, marağımı boğa bilmədim. Şərif deyir ki, filmə kalan pul ayrılıb, yaxşı da yeyiblər, ortaya da heç nə çıxartmayıblar. Deməli, filmdə Kərim ermənilərə əsir düşür. Onun qisasını almaq üçün kənd camaatı da bir ermənini girov götürür. Çox gözəl, çox pakizə deyərdik, çünki ortada məqsəd var - girovları dəyişdirmək. Amma filmi çəkənlər belə hesab ediblər ki, erməni girov mütləq əsir Kərimin evində qalmalıdır. Kərimin evində isə gənc xanımı üç azyaşlı uşaqla qalır. Düzdür, mərd qadındır, qisas hissi ilə yaşayır, əxlaqı yerindədir, amma gənc və gözəl, üstəgəl, müdafiəsizdir, yəni 5-6 yaşlarındakı oğlunu nəzərə almasaq, evdə bir başıpapaqlı yoxdur. Ayağı yaralı erməni girov isə həyətdəki birmərtəbəli tikilidə qalır. Sonradan biz onun Kərimin gənc xanımı ilə toy fotosunun asıldığı yataq otağına qalxdığını da görürük. Düzdür, o bura həyətdəki xalçaları daşıyarkən gəlib çıxır, amma nə dəxli, əsas odur ki, gəlin məhrəm otağında erməni kişi ilə üzbəsurətdir. Filmə baxdıqca, adam az qalır bağırsın ki, ay rejissor, ay ssenarist, bu xaraba kənddə yer qəhətdi ki, ermənini gətirib kişisiz evə soxmusuz?! Azərbaycan mentalitetində varmı belə şey?! Hanı bu kəndin icra nümayəndəsi, hanı sahə müvəkkili?! Yaxşı, deyək ki, bələdiyyələr onda formalaşmamışdı, hanı bəs kədin o ciyərli oğlanları ki, ermənini kənddə bir it damına yox, məhz üç körpə uşaqlı gəlinlə eyni dam altına salırdı?!

Nə isə... Film Eldar Quliyevlə Natiq Rəsulzadənin birgə işidir. Əslində illər qabaq çəkilib, sadəcə mən indi baxıram. Baxmaz olaydım.

Və... yeri gəlmişkən, filmdə Kərimin gənc arvadı əynindəki donu sona qədər dəyişmir. Erməni girovun güllə dəyən ayağı sağalır, ay ötür, gün keçir, fəsillər donunu dəyişir, gəlin donunu yox. Büdcədə qarderoba pul ayrılmayıbmı, əcəba? Yoxsa donun pulunu da yeyiblər?".

Rəyə keçməzdən öncə, tanıtım haqqında bir neçə kəlmə söyləmək haqqımızı özümüzə tanıyaq. Necə yəni "bir gecənin içində düşmənə çevrilirlər"?.. A kişi, bir gecənin içində baş verməyib bu! Əsrlər öncə baş verib. Və hələ də davam edir. Biz - Azərbaycan türkü və ümumən türklər ermənilə düşmənçilik başlatmamışıq. Erməni kimdi ki, Böyük Türkə "düşmən" ola bilsin?!. Erməninin ara-sıra niyə ucadan hürdüyü hər kəsə, dünyaya da bəllidir. Qışqırdanları var. Erməni adlanan məxluqat əsrlərdir türk düşmənliyi səpələyir. Körpədən uşağa, uşaqdan gəncə, gəncindən kaftarına qədər başlarına ağır daş olub düşən türkü düşmən elan ediblər. Burda tarix səhifələrini vərəqləməyə vaxt, imkan yoxdur. Qısa deyək. "bir gecənin içində düşmənə çevrilirlər" yazılması tarixin təhrifi və xəyanətdir. İkincisi, "zaman keçdikcə Kərimin həyat yoldaşı "düşmən"in də (?! - M.R.) insani cəhətlərə malik olduğunu və bənzər vəziyyətdə olmasını aşkar edir" də nə demək? Yəni ermənilər də zərərçəkən "xalqdılar", yazıqdılar, zavallıdılar, onlara rəhm etmək lazımdı?!. Laçın yolunda çiyninə avtomat salıb yol boyu var-gəl edən, başından böyük danışan erməni qadınını *("sadə" ermənidi - M.R.)* kimsə unutmasın. "Türklər bura gəlsə vuracam!" deyirdi. İndi vursun, baxaq! Bunların kiçiyindən böyüyünə hamısı terrorçudu, separatçıdı. Tutulanda, əsir alınanda zavallı görkəm almalarına kimsə aldanmır artıq. Əsirlikdən azad olan kimi "şirə, pələngə" dönürlər. Biz zatımız etibarilə rəhmliyik, insanpərvərik. Amma. Bir yerə qədər! Hər şeyin bir həddi, sərhəddi olduğu kimi rəhmin də həddi olmalıdır və var da! Üçüncüsü, məlum oldu ki, film bir neçə beynəlxalq kinofestivallarda nümayiş olunub. Mərhum Eldar Quliyevin ruhunu incitmək istəməzdim *(hərçənd bu bizlik də deyil- M.R.),* eynilə ssenari müəllifi Natiq Rəsulzadənin də həqiqətənmi ssenarini məhz bu cür yazıb-yazmadığını da dəqiq bilmirik, inşallah, bəlkə qismət oldu, özündən soruşmaq, amma belə fikir yarandı ki, yəqin müəlliflər filmi Azərbaycan auditoriyasından daha çox beynəlxalq festivallar üçün nəzərdə tutublar. Və "humanizm" damarları üstün gəlib. Bizə qonşu edilən xalqı da zərərçəkmiş kimi göstərməkdən, "aralarında yaxşılar da var", deyib festivallara çıxış əldə etmək fürsətini yaxalamaqdan vaz keçməyiblər. Film 2005-ci ildə çəkilib. O vaxt ki, torpaqlarımız hələ işğal altındaydı. Bu, torpağı işğal edilmiş, minlərlə şəhidi, qazisi, girovu, əsiri, itkin düşmüşü, qovulmuş, didərgin salınmış vətəndaşı olan ölkənin rejissoruna, ssenaristinə "yaxşı erməni" obrazı yaratmaq haqqı verirmi? Hesab edirik ki, özünü, rəhbərlik etdiyi qurumu bu məsələyə aidiyyətli hesab edənlər də ciddi düşünməli və qərar verməlidirlər.

**Yazıçı-dramaturq Seyran Səxavət "Şərq"ə açıqlamasında şəxsən izləməsə də, film haqqında yazılanlara istinadən deməyə çox sözü olduğunu söylədi:**

- Şübhəm yoxdu ki, film haqqında danışıldığı kimidir. Sözünə etibar etdiyim şəxslər danışıbsa, onlara inanıram. Belədə, bu film haqqında deməyə də çox sözüm oldu. Həqiqətən də, o kənddə erməni girovu saxlamaq üçün başqa bir ev tapılmır, gərək erməni "erkəyini" azərbaycanlı əsirin xanımının, uşaqlarının yaşadığı evdə girov saxlayaydılar?! Bu, qeyri-mümkündür. Müharibənin acılarını bütün xalqımız birgə yaşayıb. Qarabağlılarsa canlarında, həm də ev-eşiklərində yaşayıblar, canlı-canlı. "Axırıncı aşırım" filmini yadınıza salın; Abbasqulu bəy "evin kişisini soruşarlar!" deyir. Azərbaycanlı adət-ənənəsində, evdə kişi yoxdursa, gələn qonaq kişidirsə, qapıdan içəri keçmir. Bizim mentalitet budur! Necə ola bilər ki, erməni "erkəyini" gətirib atalar əri əsirlikdə olan - evdə olmayan qadının evinə?! Bu, Azərbaycan təfəkküründən min yox e, milyonlarla kilometr uzaqdı. Siz belə bir işi ağlınıza sığışdıra bilirsiniz? Şəxsən mənim ağlıma sığışmaz bu. Bu, ağlasığmazdı. Heç bir azərbaycanlı evində belə hal yaşana bilməz. Bu filmlə sanki biz şərəfsizliyi boynumuza alırıq. Bir məsəl var e, "gözüylə görmək " daha tam açıq demirəm. Elə bil bizi gözüylə görənə çeviriblər. Bu binamusluğu, şərəfsizliyi niyə ediblər? Məsəl var, cəhənnəmə gedən özünə yoldaş axtarar. Eynilə bu filmi çəkənlər də, orada rol alıb çəkilənlər də şərəfsizlik, namussuzluq yolunda özlərinə tərəfdaş axtarıblar. Uzun illər əvvəl "Şərq"ə müsahibəmdə "İçərişəhər Bakının yataq otağıydı. Amma biz ora əcnəbiləri daxil etdik" demişdim. Bu gün də həmin fikirdəyəm, mövqeyim dəyişməyib. Bir evin, mənzilin, ailənin ən məhrəm yeri yataq otağıdı. Ora kənar şəxs daxil olmamalıdı. Erməni "erkəyi" niyə yataq otağına daxil olmalıydı, lap xalça daşısa da? Lap ağırını da deyimmi? Bir sevişmə səhnəsi də çəkəydilər, "Qızıl palma budağı"ndan-zaddan verərdilər onlara festivalda. Bu, əkrəmliyin bir başqa formasıdı. Bu, qeyri-səmimi, humanistliyə heç bir dəxli olmayan, xalqımızın namusunu, şərəfini alçaldan bir filmdi. Fuflo bir şeydi. Və mən ağlı başında olan, şərəfi, qeyrəti olan hər kəsi bu filmi boykot etməyə çağırıram. Biz filmi boykot etməklə "gözüylə görən " məsələsini ortadan qaldırmalıyıq. Belə birisi olmadığımızı təsdiq etməliyik. And olsun Allaha ki, bu xəyanətdir! Həm xalqa xəyanətdir, həm də dövlətə!

**S.Səxavət qeyd etdi ki, film barədə Mədəniyyət Nazirliyi, Dövlət Film Fondu mütləq qərarını açıqlamalıdır:**

- Qoy onlar fikir bildirsin, mövqe ortaya qoysunlar. Əgər onlar da, Allah eləməsin, filmə qahmar çıxsalar, şəxsən mən "topla-tüfənglə" meydana çıxmağa hazıram. Heç bir qorxum da yoxdu! İndiyədək kimsədən çəkinməmişəm, bundan sonra da çəkinəcəyim yoxdur. Xalqın fikri ilə razıdırlarsa, məhv etsinlər o filmi, arxivdən də silsinlər. Gələcək nəsillər o filmi izləyəndə gorumuza söyməsinlər.

S.Səxavət filmin rejissorunun mərhum kinorejissor Eldar Quliyev olduğuna da təəssüfləndiyini bildirdi:

- O cür milli kişinin (mərhum bəstəkar Tofiq Quliyevi nəzərdə tutur - M.R.) törəməsinə bax! Eldar Quliyev "Bir cənub şəhərində" filmini çəkəndi. Mən artıq şübhələnməyə başladım. Ya o filmi Eldar Quliyev çəkməyib, başqası çəkib, onun adına çıxıblar, ya da bu filmi - "Girov"u o çəkməyib. Çünki bu filmlər bir-birinin ziddidir. Bir də ki, Eldar Quliyev həm də "Babək"i çəkdi də. O boyda sərkərdəni bir qadına yenik düşürdü. Mən xaricdə oturub bizi söyənlərlə bunların arasında daha bir fərq görmürəm. "Südşünas" olmasam da, əməlşünas ola bilərəm. Südün tərkibini müəyyənləşdirmək çətindir, amma əmələ baxıb kimin kim olduğunu müəyyənləşdirmək mümkündür.

**Məlahət Rzayeva**



# Ülviyyə "gül vurdu"

## "Cənub bölgəsinin müğənniləri paxıldırlar"

**"Qədir Qızılsəsin bölgəsindən çox müğənni var. Çoxu da paxıldır. Cənub bölgəsindən çox müğənni, xanəndə var".**

"Şərq" xəbər verir ki, bu sözləri "Həmin Zaur" proqramında müğənni Ülviyyə Namazova deyib.

O bildirib ki, ad çəkmək istəməsə də, o zonadan olan ifaçıların əksəriyyəti paxıldır: "Deyirəm, Qədir müəllim kimi ürəyi olan yoxdur. Əksəriyyəti paxıldır. Kişili-qadınlı, fərq etmir. Oradan Cabir Mirzəyev, Əflatun Qubadov, Yusif Mustafayev var. Çoxu paxıldır, amma ad çəkmək istəmirəm. Ayıbdır. Əsas qadına paxıllıq edirlər".

**Samirə Ərəblinskaya**

## Təkrar hərracın keçirilməsinə dair elan

"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının 15/02/2023 №-li, 15.02.2023-cü tarixli sifarişinə əsasən 1 ədəd "LEXUS GS250" markalı, 99-AK-806 dövlət qeydiyyat nişanlı minik avtomibilinə (Sedan tipli, 2014-cü il buraxılışlı, ağ rəngli, BAN JTHBF1BL005011005, mühərrik №0998566) dair 25 aprel 2023-ci il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş təkrarhərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avtomobil ilkin satış qiymətindən 10% aşağı qiymətə yəni33.300 (otuz üç min üç yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac açıq auksion qaydasında keçirilməklə 04 may 2023-cü il tarixi, saat 10:00-a (növbəlik qaydasında) təyin edilmişdir.

Hərrac Bakı şəhəri, Yasamal rayonu Kazım Kazımzadə 123 ünvanında keçiriləcəkdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 1.665 (bir min altı yüz altmış beş) manat məbləğində beh ödənilməlidir.Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin hesablaşma hesabına ödənilməlidir.

**Hesab №: AZ02HAJCNCRAZN10010250157001**
**VÖEN:1302724701**
**Bank adı: ASC "Xalq Bank" Baş filialı**
**Kodu:501026**

**Eyni zamanda qeyd olunur ki, 500 (beş yüz) manat məbləğində iştirak haqqı hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.**

**Əlavə telefonları: +994(50) 210-66-47; 077-712-07-77 ; 055-213-51-35**

**Elan**

Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən Ağayeva Solmaz Nəsir qızına verilmiş Tələbə bileti № 23593 itdiyi üçün etibarsız sayılır.

# Bakcell "Formula 1 Azərbaycan Qran Prisi"nin rəsmi dəstəkçisidir




**Bakcell Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) ilə "2023 Formula 1 Azərbaycan Qran Prisi"nin rəsmi dəstəkçisi olmasına dair müqavilə imzalayıb. Abunəçilərinə ultra-sürətli internet vasitəsilə ən innovativ xidmətlərdən yararlanmaq imkanı yaradan Bakcell bu dəfə yüksək sürətdən zövq alan Formula 1 azarkeşlərini sevindirəcək.**

"Azərbaycanın ən sürətli mobil şəbəkəsi olan Bakcell Formula 1 təqviminin ən sürətli şəhər treklərindən olan Bakı Şəhər Halqası ilə tərəfdaşlıqdan məmnundur. Əminəm ki, bu tərəfdaşlıq Formula 1, avtoidman və yüksək sürət həvəskarları üçün faydalı və əyləncəli olacaq", deyə Bakcell şirkətinin baş icraçı direktoru Klaus Müller bildirib.

Tərəfdaşlıq çərçivəsində "Formula 1" yarışlarındakı Azneft tribunası "Bakcell" adlandırılıb. Tribuna ərazisində yerləşən istirahət və əyləncə zonasında azarkeşlər "Bakcell"in ultra-sürətli şəbəkəsini sınaqdan keçirmək, həmçinin, müxtəlif oyun və əyləncələrə qatılmaq imkanı əldə edəcək.

Bundan əlavə, şirkət yarış günlərində "Bakcell" tribunası yaxınlığında yerləşən əyləncə zonasında öz məhsul və xidmətlərini Azərbaycan Qran Prisinin tamaşaçılarına nümayiş etdirəcək. Bakcell şirkəti Formula 1 yarışı zamanı abunəçiləri yüksək keyfiyyətli səs və internet xidməti ilə təmin etmək üçün Bakının mərkəzində, xüsusilə yarışların keçiriləcəyi ərazilərdə mobil şəbəkənin tutumunu yüksək dərəcədə optimallaşdırıb. Yarış zamanı mobil xidmətlərin istifadəsində yaranacaq iri həcmli trafik tələblərini qarşılamaq üçün Dənizkənarı Bulvar ərazisində əlavə müasir mobil baza stansiyaları quraşdırılıb. Bundan əlavə, xüsusi təyin edilmiş personal tərəfindən yarış ərazisində 24 saat ərzində şəbəkəyə və digər texniki məsələlərə nəzarət aparılacaq. Həmçinin, Bakcell Məlumat Mərkəzi də 24 saat ərzində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.

Qeyd edək ki, 2019-cu ildə Bakcell "Formula 1 Azərbaycan Qran Prisi"nin ilk rəsmi dəstəkçisi olub. "NEQSOL Holding"in tərkibinə daxil olan Bakcell Azərbaycanda VoLTE və eSIM texnologiyalarını tətbiq edən ilk mobil operatordur. 2023-cü ilin əvvəlində şirkət Bakının seçilmiş ərazilərində 5G-nin sınaq tətbiqini elan edib. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.

# Təhlükəsizlik məsələlərinə önəm vermirlər

## Mənzillərdə baş verən yanğınların 90 faizindən çoxu insanların laqeyd münasibətindən qaynaqlanır



**Ötən gün Biləsuvar şəhəri Heydər Əliyev prospektində 5 mərtəbəli binanın 5-ci mərtəbəsində partlayış baş verib. Biləsuvar Rayon İcra Hakimiyyətindən bildirilib ki, mənzildə partlayışa səbəb qaz sızması olub. Dərhal FHN-in aidiyyəti qurumları hadisə yerinə cəlb edilib. İlkin baxış zamanı partlayış baş verən mənzilin dam örtüyünün çökməsi müəyyən edilib.**

Qeyd edək ki, həmin gün Bakının Yasamal rayonunda yerləşən Azərbaycan Dillər Universitetinin yataqxanasında yanğın olub. Beşmərtəbəli yataqxana binasında baş vermiş yanğın dördüncü mərtəbədən başlayaraq beşinci mərtəbəyə keçib. Ümumilikdə 4 mənzil yanıb, digər mənzillər alovdan xilas edilib.

**Təhükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyevin "Şərq"ə açıqlamasına görə, mənzillərdə baş verən yanğınların 90 faizindən çoxu insanların laqeyd münasibətindən qaynaqlanır. Ekspertin sözlərinə görə, insanlar yanğın təhlükəsizlik qaydalarına ciddi riayət etməlidirlər, ancaq təəssüf ki, çox vaxt belə ciddi məqamlara diqqət yetirilmir:** "İnsanların məsuliyyətsiz davranışı, ehtiyatsızlığı, təhlükəsizlik qaydalarına riayət olunmaması səbəbindən baş verən yanğınlar böyük əksəriyyət təşkil edir. Ona görə də insanlar birinci növbədə yanğın təhlükəsizliyi haqqında qaydalarla tanış olmalıdırlar. Yaşadıqları yerə uyğun qaydalara düzgün əməl etsələr, yanğının baş vermə riskini azaltmış olarlar. Nəticədə yanğınların sayı azalar. Yanğınlar daha geniş miqyasda olanda artıq peşəkar yanğınsöndürmə qrupları da çətinlik çəkir. Nəticədə həm insanlara və mülklərinə, həm təbiətə və ekologiyaya, həm də flora və faunaya ziyan dəyir.

Təbii ki, maarifləndirmə müvafiq qurumlar tərəfindən edilir, amma bunu mütləq sistemli şəkildə, mütəmadi olaraq davam etdirmək lazımdır".

E.Nurəliyevin sözlərinə görə, bəzən vətəndaşlarımız təmir-tikinti zamanı təhlükəsizlik məsələlərinə önəm vermirlər: "Az qala, hər kəs özünü "usta" sayır. Elektrik xətlərini özləri birləşdirir, qaz, su borusunu özləri çəkir, yaxud da bu işi bildiyini güman etdikləri dostlarını, tanıdıqlarını dəvət edirlər. Nəticədə bəzən görürük ki, qaz xətti də səhv çəkilib, səhv qoşulub, su xəttini qaz borusuna qoşublar. Kombi sistemləri də çox zaman bu cür səhv quraşdırılır.

Mənzildə təmir aparılarkən xüsusilə elektrik xətləri, qaz çəkilişi və ya qaz borularının dəyişdirilməsi zamanı mütləq mütəxəssislərə, "Azəriqaz"ın yerli bölmələrinə müraciət edilməlidir. Qaz istismar idarəsinin əməkdaşları bu işi çoxlarından daha yaxşı, dəqiq, güvənli yerinə yetirəcəklər. Mənzildə təmir aparılırsa, bu haqda yerli orqanlara xəbər verilməlidir. Hətta fərdi evlərdə aparılan təmir, tikinti işləri zamanı da təhlükəsizlik məsələlərinə ciddi fikir verilməlidir.

Qaz, elektrik enerjisi çox təhlükəli məsələlərdir. Hansısa qaz sızıntısı, elektrik xəttinin düzgün qoşulmaması həm ev sahibinə, həm də ətrafdakı evlərə zərər verə, insan tələfatı ilə nəticələnə bilər. Çoxmənzilli binalarda isə diqqət üst səviyyədə olmalıdır. Çünki mənzillər bir-birinə bitişikdir. Yaşayış binaları panellərin bir-birinə bağlanması yoluyla tikilir. Ümumi qaz, su xətti, elektrik enerjisi bloku olur. Bir mənzildə baş verəcək nasazlıq bütün binanı silkələyə, güclü partlayışa və insan tələfatına, ağır xəsarətlərə səbəb olar".

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1043



## İnanılmazdır...

Qarışqalar yol çəkir, prospekt salır

**Qarışqaların tərk etdikləri yuvaların daxilində nələr olduğu ilk dəfə Braziliyada aşkarlandı.**

"Haber.Türk"ün veridyi məlumata görə, tədqiqatçılar qarışqa yuvasına 10 ton sement tökərək 3 gün gözləyiblər. 3 gün sonra 8 metr dərinliyində, 500 kvadrat metrlik əraziyə yayılmış "şəhərciklə" qarşılaşıblar. Braziliyalı tədqiqatçılar qarışqa yuvasında nələrin olduğunu gördükdə heyrətə gəlib. Burada magistral yollar, onlarla kəsişən ələvə çıxışlar, yollar, mindən artıq otaq olduğu görünüb. Həftələrlə davam edən tədqiqat qarışqaların nələr bacardığını üzə çıxarıb. Qarışqaların zəhməti sayəsində meydana gəlmiş bu nəhəng tikili əsl şəhəri xatırladır. Tədqiqatçılar insanların qarışqalardan hələ çox öyrənə biləcəyi, xüsusən şəhərsalmada qarışqaların təcrübəsindən istifadə edilməli olduğu fikrindədir.

Məlahət

## Türkiyədə milyardıncı sərnişinə 1 milyon mil səyahət hədiyyə edilib



**Aprelin 24-də İstanbul-Adıyaman reysi ilə "Türk Hava Yolları" aviakompaniyasının milyardıncı sərnişini uçuş həyata keçirib.**

Anadolu agentliyi xəbər verir ki, Mustafa Balcı adlı milyardıncı sərnişini milli aviadaşıyıcının rəhbəri Əhməd Bolat yola salıb və ona 1 milyon mil səyahət kuponu hədiyyə edib.

Əhməd Bolat 1933-cü ildə əsası qoyulan aviakompaniyanın hazırda 2 milyard sərnişin həddinə çatmağı hədəflədiyini bildirib: "Bir milyard sərnişin həddinə 90 il ərzində nail olduq. Artıq səkkiz ildən sonra - 2031-ci ildə bu göstəricini iki dəfə artırmağı planlaşdırırıq".

## 12 dəfə əməliyyat etdirdi, dünyasını dəyişdi



**Özünü Cənubi Koreyalı oğlan qrupu "BTS"nin üzvü Cimə bənzətməyə çalışan gənc dünyasını dəyişib.**

Axşam.az xəbər verir ki, bunun üçün 12 dəfə bıçaq altına yatan Saint von Coluccinin həyatını xilas etmək mümkün olmayıb.

*Qeyd edək ki, o, sözügedən əməliyyatlara ümumilikdə 220 min dollar pul xərcləyib.*

## Sığır kinoteatr binasına girib popkornu yedi



**ABŞ-ın Alyaska ştatında Amerikan sığırı kinoteatra girib.**

Lent.az bildirir ki, kinoteatr işçiləri binaya girib popkorn yeyən sığırı lentə alıblar.

Nəhəng bir heyvan kinoteatrın foyesinə daxil olub, orada zibil qutusunu vərəqləyir, popkorn yeyir və burnuna yapışmış McDonald's Happy Meal qutusunu salır. Çağırılmamış qonağın peyda olmasını kinoteatrın əməkdaşlarından biri görüb və həmin an binada işləyən menecerə zəng edib. Ekspert əlavə edib ki, belə hallar təhlükəli ola bilər. Məsələ burasındadır ki, sığırlar insanlara və insanların qidasına öyrəşir. Bu da onları daha təhlükəli edir.

## Yıldız Tilbe: "Çox da gözəlləşib başıma dərd açmaq istəmirəm"



**Ramazan bayramında səhnəyə çıxan məşhur müğənni Yıldız Tilbe gözəllik mərkəzində keçirdiyi vaxtla bağlı suala "Mən kifayət qədər gözələm" cavabını verib.**

**"Şərq" türk mediasına istinadən xəbər verir ki, məşhur müğənni Yıldız Tilbe Ramazan bayramında sevənləri ilə bir araya gəlib. Türkiyədə baş verən zəlzələlərdən sonra ilk dəfə səhnəyə çıxdığını bildirən Tilbe, "Uzun müddət oldu. Ona görə də bir az həyəcanlıyam" deyib. Yıldız Tilbe səhnədə olarkən pərəstişkarlarının suallarını cavablandırıb. "Gözəllik mərkəzində saatlarla olub-olmadığı" sualına müğənni "Mən kifayət qədər gözələm. Ona görə çox da gözəlləşib başıma dərd açmaq istəmirəm".**

Turan

## Viktoriya ilə Devid Bekhemin digər oğlu da evlənir



**Keçmiş futbolçu Devid Bekhemlə həyat yoldaşı, məşhur modelyer Viktoriya Bekhemin oğlu Romeo Bekhemin nişanlandığı iddia edilib.**

**Axşam.az xəbər verir ki, Romeonun sevgilisi Mia Reqanla evlilik yolunda ilk addımı atdıqları bildirilib. Şayiələrin yaranmasına səbəb ötən gün Londonda görüntülənən Mianın barmağında brilyant üzüyün diqqət çəkməsi olub.**

***Qeyd edək ki, cütlük üç ildir münasibətdədir. Ötən il Romeonun qardaşı Bruklin amerikalı milyarder Nelson Peltzin qızı Nikol Peltzlə evlənib.***



# Fəlakət daşının sirri

## Kimin əlinə keçdisə faciə gətirdi

**Hindistanda bir tanrı heykəlinin alnından qopardığı deyilən, tarixdə bu gün də "lənətlənmiş daş" kimi haqqında danışılan qiymətli mavi almaz - Hope Diamond ona sahiblik edənlərin həyatına yalnız fəlakət gətirib. "Şərq" "Milliyet.com"a istinadən fəlakət daşının tarixçəsini təqdim edir. Rəvayətlərə görə, bu mavi almaz Hindistanda müqəddəs sayılan tanrılardan birinin tacından oğurlanıb.**

Mavi almaz bir çox tarixi şəxsiyyətlərin cəvahirləri arasında olub. Lakin kim ona sahiblənibsə, həyatında fəlakətlərlə, faciələrlə üzləşib. Bir neçə məşhur şəxsin faciələrlə üzləşməsi, oğurlanan mavi almazın lənətlənmiş daş olması mülahizəsini həqiqətə yaxınlaşdırır. Bəzi əşyaların uğursuzluq gətirməsi kimi batil inanclar müxtəlif ölkələrdə müxtəlif formada həmişə mövcud olub. 112 karatlıq, 22 qramdan ağır çəkisi olan mavi almaz deyilənə görə, 1600-cü illərdə Hindistandakı Şiva tanrı abidəsindən oğurlanıb. Bu almaz müharibə "Allahı" olan "tanrı Şiva"nın üçüncü gözü imiş. Daş oğurlanandan sonra guya, "tanrı Şiva" tərəfindən lənətlənib və kim ona sahib olubsa, onun da başına olmazın fəlakətlər gəlib. Bu daşın bor atomundan ibarət olduğu iddia edilir v onun digər almaz daşlardan fərqli olaraq çox parlaq olmasının da səbəbi budur. Deyilənə görə, almazı oğurlayan adam onu dövrün məşhur taciri Jean-Baptiste Taverniərə satıb. Tacir isə almazı Fransa kralı 14-cü Luiyə satıb. Bundan dərhal sonra tacir dünyasını dəyişib. Kral isə çəkisi ağır olan mavi almazı daşımağın çətin olacağını əsas gətirərək onun parçalara bölünməsini və fərqli bəzək əşyalarında istifadə edilməsini tapşırıb. Bundan sonra da ard-arda ölüm hadisələri baş verib. Əvvəlcə kralın oğlu, sonra qardaşı, daha sonra ailə üzvlərindən daha bir neçə nəfər vəfat edib. Bunu mavi daşın lənətiylə əsaslandıran kral onu boynundan çıxarır. Lakin bir müddət sonra qanqrenə mübtəla olaraq vəfat edib. Bunun ardınca mavi almazın lənəti haqqında daha çox danışılmağa başlanıb. Lakin bu daşa sahib olmaq istəyənlər yenə də olub. 14-cü Liudən sonra mavi almaz Kral 16-cı Lyüdovik və həyat yoldaşı Mariya Antuanettaya qismət olub. Lakin hər ikisi də edam edilib. Yenə də "bu, mavi almazın lənətidirmi" sualı düşündürməyə başlayıb. 19-cu əsrdə mavi almazla birlikdə bir çox digər qiymətli cəvahirat da Fransa kral mülkündən oğurlanıb. Bu daşlara daha sonra İngiltərədə rast gəlinib. Fərqli şəxslər mavi almaza sahib olub. Hendriks Falls, ingilis bankir Tomas Hope Mavi almazın sahibləri arasında Osmanlı sultanı II Əbülhəmid də var. Deyilənə görə, sultan bu daşı 1908-ci ildə yarım milyon dollara satın alıb. Növbəti ildə isə taxtdan endirilib. Mavi almazı sultana satmış rum zərgər də qəzada vəfat edib. II Əbdülhəmidin "mavi



almazı" kimi tanınan daş 1900-cü illərdə ləl-cəvahirat kolleksioneri Pyer Cartiyer tərəfindən satın alınıb. Daş mücəvhər aşiqini öldürməsə də, müflis edib. Və bu dəfə daş amerikalı zəngin qadın Evalyn Valsh Macleanın əlinə keçib. Qadın mavi almaz daşlı boyunbağıdan heç ayrılmayıb. Lakin əvvəlcə 9 yaşlı oğlu, ardınca da qızı vəfat edib. Həyat yoldaşı psixiatriya xəstəxanasına yerləşdirilib. Qadının özü vəfat etdikdən sonra isə mavi almaz başqa bir zəngin şəxsə Harri Vinstona qismət olub. Bu şəxs daha ağıllı hərəkət edib. Mavi almazı 1958-ci ildə ABŞ-dəki "Smithsonian" İnstitutunun muzeyinə hədiyyə edib. İndi bu daş muzeydə saxlanılır və nümayiş olunur.

Məlahət Rzayeva



# Keniyada 1000 nəfər acından öldü

## "Aclıq təriqətçiləri"nin faciəvi sonu

**Şərqi Afrika ölkəsi Keniyanın Malindi qəsəbəsində müridlərini ac saxlayaraq həzrəti İsaya qovuşacaqlarını "vəd" edərək ölümlərinə səbəb olan təriqət lideri Paul Mckenzie Nthenge saxlanılıb.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, aprelin 15-də qəsəbədə 4 nəfərin cəsədini aşkarlayan yerli polis onların aclıqdan öldükləri şübhəsiylə araşdırmalara başlayıb. Malindidəki "Good News International" kilsəsi yaxınlığındakı Shakahola meşəsində toplu məzarlıqda daha 73 cəsəd tapılıb. 112 nəfərin itkin olduğu, ölü sayınınsa arta biləcəyi ehtimal edilib. Polis tərəfindən saxlanılan təriqət lideri isə həyasızcasına etiraf edib ki, ən azı 1000 nəfərin cəsədi tapılacaq: "Həzrəti İsayla görüşə gedən ən azı 1000 nəfər tapacaqsınız". Keniya Prezidenti Uilyam Ruto faciəvi hadisə ilə bağlı açıqlama verərək "bunun terrorçuluqdan heç bir fərqi yoxdur", söyləyib. Runo "terrorçular çirkin əməlləri üçün dini alət edir. Bu tip adamların, digər terrorçu və cinayətkarların dini yoxdur. Onların aid olduqları yer həbsxanadır", deyib. Bununla belə keşiş Nthengedən edilən şikayətlər əsasında əvvəlcə o, həbs edilsə də, sonra sərbəst buraxılıb.

Məlahət

## Ömrü 16 il uzadan vərdiş hansıdır?

Gündə yarım saat müntəzəm sürətli gəzintilər sağlamlıqdır



**Böyük Britaniyanın Lester Universitetinin tədqiqatçıları müəyyən ediblər ki, gündə yarım saat müntəzəm olaraq sürətli gəzintilər insan ömrünü 16 il uzadır.**

Onlar bu qənaətə "UK Biobank" tərəfindən toplanmış 400 mindən çox iştirakçı haqqında məlumatların təhlilindən sonra gəliblər. Məlum olub ki, müntəzəm gəzməyə üstünlük verənlər 16 il daha çox yaşayırlar.

Oxu.az xəbər verir ki, tədqiqatçıların fikrincə, sürətli yerimək vərdişi telomerlərin uzunluğunu artıra bilər. Telomerlər xromosomların uclarında yerləşir və bədənin qocalma sürəti onların uzunluğundan asılıdır. Beləliklə, onlar nə qədər uzun olsalar, bioloji yaş bir o qədər aşağı olur və ya əksinə. Bundan əlavə, müntəzəm gəzinti fiziki, zehni və sosial faydalar da verə bilər.

## Zərərlidir

Çiyələklərə də antibiotik vururlar



**Rusiya çiyələklərində normadan 20 qat artıq antibiotik aşkar edilib.**

"Medicina" xəbər verir ki, Rusiyada istixanalarda yetişdirilən çiyələklərdə antibiotiklərin miqdarı miqyasdan kənara çıxır.

Bundan fərqli olaraq, xaricdən idxal edilən çiyələklərdə və giləmeyvələrdə başqa zəhərli maddələr aşkarlanıb.

Rosselxoznadzor mütəxəssisləri çiyələklərin keyfiyyəti ilə bağlı məlumatları açıqlayıb. Həm Rusiya istehsalı olan giləmeyvə, həm də xaricdən gətirilənlərlə bağlı problemlər var.

İstixana şəraitində yetişdirilən çiyələklərdə antibiotiklərin 20 dəfə artıqlığı, xüsusən də tetrasiklin aşkar edilib. Xaricdən gətirilən çiyələklərdə həddindən artıq zəhərli maddələr aşkar edilib.

Rosselxoznadzor məlumat verib ki, indi bitki mənşəli məhsullarda antibiotiklərin tərkibinə dair müəyyən edilmiş standartlar yoxdur. İstər ölkəyə gətirilən, istərsə də istixana şəraitində yetişdirilən çiyələklərin satışına qadağa qoyulmasından söhbət getmir. Amma departament gələcəkdə normativ-hüquqi bazaya lazımi dəyişikliklərin edilməsi üçün bitki mənşəli məhsullarda yoxlamalar aparmaq niyyətindədir.

İdxalçılar məhsullarında antibiotiklərin istifadəsini inkar edirlər. Əksər ölkələr bitkiçilikdə tibbi antibiotiklərin istifadəsini qadağan edib. Lakin çiyələklərin becərilməsi zamanı antibiotiklərdən iri şirkətlər deyil, daha çox kiçik təsərrüfatlar istifadə edir. Daşınma zamanı tez xarab olan meyvə və giləmeyvələri uzun müddət saxlamaq üçün pestisidlərlə birlikdə, tetrasiklin və digər antibiotiklərdən istifadə edilir. Belə giləmeyvə süfrənizə düşəndə və siz onlardan çox yeyəndə orqanizmdə antibiotiklər çox toplana bilər. Nəticədə, bu, qida allergiyasına gətirib çıxaracaq. Ən təhlükəlisi isə patogen mikrofloranın antibiotiklərə qarşı müqaviməti qırılacaq. Alimlər köhnə infeksiyaların qayıdışını və yenilərinin meydana çıxmasını qeyd edirlər. Alimlər hesab edirlər ki, dünyada superinfeksiya epidemiyası çoxdan başlayıb. Problemin bir hissəsi ondan ibarətdir ki, son 30 il ərzində alimlər bir dənə də yeni antibiotik sinfi yarada bilməyiblər.

## 4 milyonluq "Bugatti" cəmi 40 ədəd istehsal ediləcək



**15:29Oxunub 624 milyonluq "Bugatti" cəmi 40 ədəd istehsal ediləcək - FOTOReklam**

Fransız avtomobil istehsalçısı "Bugatti" yeni "Bolide" modeli barədə bir sıra texniki məlumatları paylaşıb. Avtosfer.az-ın xəbərinə görə, avtomobilin şassisi "Chiron" modeli ilə eyni olsa da, dizayn F-1 avtomobillərinə bənzəyir. Avtomobildə ənənəbi 4 turbinli W16 mühərrik saxlansa da, güc artırılacaq. Bu mühərrik 1500 kiloq1ramlıq avtomobilə 500 km/saat sürət verə bilir. Qiymət və saya gəlincə: "Bolide" cəmi 40 ədəd istehsal ediləcək və hər maşının qiyməti sabit olaraq 4 milyon avro müəyyən edilib. Artıq gələn il ilk partiya müştərilərə təqdim ediləcək.